## Bəşər Əsəd ortaq düşməndir

Fidan və Blinken danışıqlarında 3 əsas tezis önə çıxır



**Türkiyənin xarici işlər naziri Hakan Fidan və ABŞ Dövlət katibi Antoni Blinken arasında dekabrın 13-də görüş olacağı gözlənilir. Suriyada Bəşər Əsədin devrilməsi fonunda bu görüş diqqət çəkir.**

Aydın məsələdir ki, tərəflər arasında əsas müzakirə mövzusu Suriyadakı son proseslər olacaq. Türkiyənin Suriyanın şimalında PKK-ya bağlı qüvvələrin mövcudluğuna son qoymaq üçün xəbərdarlıq edəcəyi, əks halda, əməliyyata başlayacağı gözlənilir.

(səh.2)



## Tramp İranla müharibə ehtimalını istisna etmir

**"İranla bağlı məsələ son dərəcə mürəkkəbdir. Siz müharibə barəsində soruşursunuz? Hər şey ola bilər".**

Bunu ABŞ-nin yeni seçilmiş prezidenti Donald Tramp bildirib.

O, ölkəsinin rəsmi Tehrana qarşı bundan sonra atacağı addımlarla bağlı sualı isə cavablandırmayıb.

❐ № 229 (6230) 2024-cü il

Qiyməti 40 qəpik

# ŞƏRQ

Günəş Şərqdən doğur!

www.sherg.az 13 dekabr 2024-cü il (cümə)



# Bütün xəstəxanalar onlayn növbəyə keçir

**"Artıq Bakı və regionlardakı bəzi xəstəxanalarda onlayn növbə sistemi təşkil edilib".**

Bunu TƏBİB-in icraçı direktoru Vüqar Qurbanov jurnalistlərin suallarını cavablandırarkən deyib.

"Qısa müddətdə bütün ölkə üzrə xəstəxanalarda onlayn növbə sistemi təşkil ediləcək", - deyə o qeyd edib.

Ölkə üzrə epidemioloji vəziyyətlə bağlı sualı cavablandıran Vüqar Qurbanov deyib ki, tibb müəssisələrində epidemioloji vəziyyətlə bağlı təcili tibbi xidmətə müraciətlərdə kəskin artım yoxdur:

"Hazırda kəskin respirator xəstəliklərin yayılması müşahidə olunsa da, xəstəxanalara müraciət sayı normal səviyyədədir".



## Heydər Əliyevin vəfatından 21 il ötür

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ümummilli Liderin məzarını ziyarət ediblər

**Müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, dünyaşöhrətli siyasi xadim, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin vəfatından 21 il ötür.**

Dekabrın 12-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Fəxri xiyabana gələrək xalqımızın Ümummilli Lideri Heydər Əliyevin məzarını ziyarət ediblər. Prezident İlham Əliyev Ulu Öndərin məzarı önünə əklil qoydu. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildi.

(səh.2)

## Məzahir Pənahov rəqəm açıqladı

İndiyə qədər 3000 nəfərə yaxın şəxs bələdiyyə üzvlüyünə namizədliyini irəli sürüb



**"Ölkə üzrə 685 bələdiyyəyə 8071 bələdiyyə üzvü seçiləcək. Yerlərdə indiyə qədər 3000 nəfərə yaxın şəxs bələdiyyə üzvlüyünə namizədliyini irəli sürüb".**

Bunu jurnalistlərə Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahov deyib.

"Bələdiyyə seçkilərinə hazırlıqla bağlı bütün addımlar Mərkəzi Seçki Komissiyasının Təqvim Planına uyğun olaraq atılır. Yerlərdə namizədlərin irəli sürülməsi prosesi də davam edir. Onların qeydiyyatı prosesinə artıq başlanılıb. Mərkəzi Seçki Komissiyası daim bu prosesi nəzarətdə saxlayır. İndiyədək hansısa xoşagəlməz hal ilə bağlı hər hansı müraciət daxil olmayıb", - MSK sədri vurğulayıb.

# Sülh sazişinin 2 maddəsi üzrə razılaşma alınmır

Ermənistan hökuməti öz siyasətində toplumla, qurumlarla, kilsə ilə yekdil qərara gəlməlidir



**Azərbaycan xarici işlər naziri Ceyhun Bayramov sülh prosesinin hansı mərhələdə olmasına aydınlıq gətirib. Nazir bildirib ki, Ermənistanla sülh müqaviləsi layihəsi 17 maddədən ibarətdir və artıq 15 maddə razılaşdırılıb. Nazir qeyd edib ki, 2 maddə ilə bağlı işlər isə davam edir.**

Onun sözlərinə görə, sülh müqaviləsinin layihəsi 17 maddə və preambuladan ibarətdir: "Preambula və 15 maddə üzrə demək olar mətnlər tam razılaşdırılıb. 2 maddə üzrə isə açıq suallarımız var. Həmin açıq suallar üzrə son müddət ərzində işlər davam edir. Artıq bir neçə raund danışıqlar olub və mətn mübadilələri həyata keçirilib. Hələ ki, tam razılaşdırılmış varianta gəlmək mümkün olmayıb. İşlər davam edir". C.Bayramov qeyd edib ki, postmünaqişə dövründə Azərbaycan və Ermənistan sülh danışıqlarını və mətn üzrə mübadilələri davam etdiriblər...

(səh.4)

# Fevralı da gözləyək

Aİ missiyası Ermənistanı tərk etməsə, gərginlik artacaq



**Prezidentin köməkçisi Hikmət Hacıyev Avropa İttifaqının Ermənistandakı "mülki missiyası"nın fəaliyyətindən danışıb.**

O bildirib ki, Ermənistan ərazisində hər hansı üçüncü ölkənin qüvvələrinin yerləşdirilməsi narahatlıq doğuran faktordur. H.Hacıyev vurğulayıb ki, Azərbaycan tərəfi qarşılıqlı anlaşma və sülh şəraitində aparılan delimitasiya prosesində üçüncü tərəfin iştirakına hər hansı ehtiyac görmür. Oan görə də Ermənistan-Azərbaycan sərhədindəki Avropa İttifaqının missiyasının fəaliyyəti artıq başa çatmalıdır.

(səh.4)




## Bakıda instaqramda tanış olduğu 13 yaşlı qızdan 80 min aldı

Məmmədov əldə etdiyi pul və qızıl-zinət əşyaları vasitəsilə özünə 8-ci kilometr bazarında ayaqqabı mağazası açıb

**Bakıda 13 yaşlı qızdan külli miqdarda qızıl və pul alan şəxs cinayət məsuliyyətinə cəlb edilib.**

Bakı Ağır Cinayətlər Məhkəməsinin hökmü ilə Cəlilabad rayon Göytəpə şəhər sakini 2003-cü il təvəllüdlü E.Məmmədova 6 il həbs cəzası verilib. O, Cinayət Məcəlləsinin 178.3.2-ci (Dələduzluq-Külli miqdarda zərər vurmaqla törədildikdə) maddəsi ilə təqsirli bilinib.

(səh.4)

## Bulvar ərazisində batma təhlükəsi olan yeniyetmə xilas olunub



**Fövqəladə Hallar Nazirliyinin "112" qaynar telefon xəttinə Bakı şəhəri, Səbail rayonunda yerləşən Dənizkənarı Milli Park ərazisində 1 nəfərin dənizdə batma təhlükəsində olması barədə məlumat daxil olub.**

Bu barədə FHN məlumat yayıb. Məlumatla əlaqədar dərhal hadisə yerinə FHN-in Kiçikhəcmli Gəmilərə Nəzarət və Sularda Xilasetmə Dövlət Xidmətinin "Bakı-bulvarı" dalğıc-axtarış qrupu cəlb edilib. Həyata keçirilən operativ xilasetmə əməliyyatı sayəsində dənizdə batma təhlükəsində olan vətəndaş - 2008-ci il təvəllüdlü Rəşad Məmmədli dalğıclar tərəfindən xilas edilib.

## Bu gün Xocalının Ballıca kəndinə ilk köç olacaq



**Xocalı rayonunun Ballıca kəndinə dekabrın 13-də ilk köç olacaq.**

İlk mərhələdə respublikanın müxtəlif ərazilərində yataqxana, sanatoriya, pioner düşərgəsi, yarımçıq tikililər və inzibati binalarda müvəqqəti məskunlaşanlar kəndə yola salınacaq.

*Qeyd edək ki, Ballıca kəndi 1992-ci ildən Ermənistan Silahlı Qüvvələrinin işğalı altında olub. 19-20 sentyabr 2023-cü ildə aparılan lokal xarakterli antiterror əməliyyatı nəticəsində azad olunub.*



## Nazir etiraflarında çox haqlıdır

Müəllimlərin əlindən bütün səlahiyyətlərini alıb, sonra da ondan xaruqələr gözləyirik

(səh.3)



## Bakı Ermənistandan müsbət cavab gözləyir

Azərbaycan təxminən 6 ay içində Zəngəzur dəhlizini işlək vəziyyətə gətirəcək

(səh.3)



# Heydər Əliyevin vəfatından 21 il ötür

## Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ümummilli Liderin məzarını ziyarət ediblər

**Müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, dünyaşöhrətli siyasi xadim, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin vəfatından 21 il ötür.**

Dekabrın 12-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Fəxri xiyabana gələrək xalqımızın Ümummilli Lideri Heydər Əliyevin məzarını ziyarət ediblər.

Prezident İlham Əliyev Ulu Öndərin məzarı önünə əklil qoydu.

Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildi.

Dövlətimizin başçısı İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ulu Öndərin ömür-gün yoldaşı, görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsini ehtiramla andılar, məzarı üzərinə gül dəstələri qoydular. Tanınmış dövlət xadimi Əziz Əliyevin və professor Tamerlan Əliyevin də xatirələri yad edildi, məzarları üstünə gül dəstələri düzüldü.

***

Azərbaycanın çağdaş tarixində silinməz iz qoymuş Ulu Öndər Heydər Əliyev dahi şəxsiyyətlərdən biridir. Müstəqilliyimizin möhkəmləndirilməsi, milli şüurun inkişafı, iqtisadiyyatın tərəqqisi və ordu quruculuğu Ulu Öndərin hakimiyyətdə olduğu dövrün əsas nailiyyətləridir. Ötən əsrin 90-cı illərinin əvvəllərində xalqın tələbi ilə yenidən hakimiyyətə qayıdan Ümummilli Lider tərəfindən dövlətçiliyin əsasları qoyuldu və genişmiqyaslı islahatlara start verildi. Ulu Öndər Heydər Əliyevin Azərbaycana bəxş etdiklərini tarix boyunca ondan əvvəl heç kim bacarmayıb.

Xalqımız Dahi Şəxsiyyətin xilaskarlıq və quruculuq missiyasını unutmur və heç vaxt unutmayacaq. İyirminci əsrin 90-cı illərində çox çətin dönəm yaşamış Azərbaycan xalqı qurtuluşuna, bugünkü tərəqqisinə görə özünü Heydər Əliyevə borclu hesab edir. Hər il dekabrın 12-də və mayın 10-da Fəxri xiyabanda yaşanan izdiham Ulu Öndərin xatirəsinə böyük hörmətin əlamətidir. Xalqımız Heydər Əliyevin azərbaycançılıq ideologiyasına sadiqdir.

Ümummilli Lider Heydər Əliyevin ən böyük arzusu Qarabağın düşmən tapdağından azad edilməsi, Azərbaycanı bütöv görmək idi. Dahi şəxsiyyətin bu arzusunu və vəsiyyətini onun layiqli davamçısı, Azərbaycan Prezidenti, Silahlı Qüvvələrimizin Müzəffər Ali Baş Komandanı, qüdrətli sərkərdə İlham Əliyev reallığa çevirdi, ölkəmizin ərazi bütövlüyü və suverenliyi hərbi-siyasi yolla bərpa olundu. İndi üçrəngli Dövlət Bayrağımız bütöv Azərbaycanın hər bir guşəsində qürurla dalğalanır. İşğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzur hazırda yenidən qurulur, ərazilər minalardan təmizlənir, sürətlə genişmiqyaslı bərpa və yenidənqurma işləri aparılır.

Görkəmli dövlət xadimi Heydər Əliyev cismən aramızda olmasa da, onun parlaq ideyaları Azərbaycanın inkişaf yolunu işıqlandırır. Ulu Öndərin müəyyənləşdirdiyi inkişaf yolu əzmlə davam etdirilir və ölkəmizi inamla irəli aparır. Bu gün vətənimizin milli maraqlarını qətiyyətlə müdafiə edən Prezident İlham Əliyev uzaqgörən və titanik fəaliyyəti ilə Azərbaycanı dünya miqyasında, o cümlədən Türk dünyasında və bölgədə qüdrətli dövlətə, söz və nüfuz sahibinə, etibarlı tərəfdaşa çevirib.

Əminliklə söyləmək olar ki, Azərbaycan var olduqca Ulu Öndər Heydər Əliyevin ideyaları yaşayacaq və daha da inkişaf etdiriləcək.

# Türkiyəli general Bakıda

## Azərbaycan və Türkiyə arasında hərbi əməkdaşlıq məsələləri müzakirə edilib



**Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov ölkəmizdə səfərdə olan Türkiyə Respublikasının Hərbi Hava Qüvvələrinin komandanı ordu generalı Ziya Cemal Kadıoğlunun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.**

Müdafiə Nazirliyinin mətbuat xidmətindən "Şərq"-ə verilən məlumata görə, türkiyəli qonaqlar əvvəlcə Fəxri xiyabanda Ümummilli Lider Heydər Əliyevin və görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın məzarlarını, həmçinin Şəhidlər xiyabanı və Türk Şəhidliyini ziyarət edərək əklil və gül dəstələri qoyub, xatirələrinə dərin ehtiram nümayiş etdiriblər.

Müdafiə Nazirliyində keçirilən görüşdə general-polkovnik Z.Həsənov qonaqları Azərbaycanda görməkdən məmnun olduğunu bildirib, Azərbaycan-Ermənistan şərti sərhədində mövcud əməliyyat şəraiti ilə bağlı Türkiyə nümayəndə heyətini məlumatlandırıb. O, Ermənistanın yenidən silahlandırılmasının regionda sülhün və sabitliyin qorunmasına mənfi təsir etdiyini vurğulayıb.

Azərbaycan-Türkiyə strateji müttəfiqliyinin dostluq və qardaşlıq münasibətləri üzərində qurulduğunu bildirən nazir hərbi əməkdaşlığımızın daha da inkişaf etdirilməsinin vacibliyini, qardaş ölkənin hərbi sənayesinin günü-gündən inkişaf etməsinin qürurverici məqam olduğunu bildirib.

Səmimi qonaqpərvərliyə görə təşəkkürünü bildirən Z.C.Kadıoğlu ölkələrimiz arasında qarşılıqlı təcrübə mübadiləsinin genişləndirilməsinə yönəldilmiş hərbi əlaqələrin yüksək səviyyədə olduğunu qeyd edib.

Son zamanlar dünyada baş verən münaqişələrin, müasir döyüş üsullarının birgə təhlil olunması və öyrənilməsinin zəruriliyinin xüsusi vurğulandığı görüşdə, həmçinin hərbi, hərbi-texniki əməkdaşlıq, regional təhlükəsizlik və digər məsələlərə dair ətraflı fikir mübadiləsi aparılıb. 15 ildir ki, davam edən Azərbaycan-Türkiyə Yüksək Səviyyəli Hərbi Dialoq iclasının müsbət nəticələrindən danışılıb.

Sonra Azərbaycan Respublikasının müdafiə nazirinin birinci müavini - Azərbaycan Ordusunun Baş Qərargah rəisi general-polkovnik Kərim Vəliyev və müdafiə nazirinin müşaviri general-polkovnik Bəxtiyar Ersay qardaş ölkənin nümayəndə heyəti ilə görüşüb. Baş Qərargahda keçirilən görüşlər zamanı hərbi əməkdaşlığın inkişaf perspektivləri müzakirə olunub, qarşılıqlı təcrübə mübadiləsi məqsədilə birgə təlimlərin keçirilməsinin, qoşunların uyarlılığının təmin olunmasının vacibliyi qeyd edilib.

Səfər çərçivəsində türkiyəli nümayəndələr Hərbi Hava Qüvvələrində olub. Azərbaycan Respublikasının müdafiə nazirinin müavini - Hərbi Hava Qüvvələrinin komandanı general-leytenant Namiq İslamzadə rəsmi qarşılanma mərasimindən sonra qonaqlarla görüşüb.

Görüşdə Azərbaycan Ordusunda həyata keçirilən islahatlardan danışılıb, peşəkar kadr hazırlığı məqsədilə hərbi təhsil sahəsində əməkdaşlığın davam etdirilməsinin zəruriliyi vurğulanıb, eləcə də birgə hərbi əlaqələrin inkişaf istiqamətlərinə dair müzakirələr aparılıb.

Türkiyəli nümayəndə heyətinə Hərbi Hava Qüvvələrinin Mərkəzi Komanda Məntəqəsində görülən işlər barədə ətraflı məlumatlandırılıb.

# Biz təkcə Heydər Əliyevi yox, həm də keçdiyimiz yolu anırıq

## Elçin Alıoğlu: "Ümummilli Lider bir bayraq kimi, səs kimi, mahnı kimi bütünlüklə xalqına məxsusdur"



**Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin anım günüdür. Onun vəfat etməsindən 21 il ötür.**

Heydər Əliyev çoxəsrlik Azərbaycan tarixində misilsiz xidmətləri ilə əbədiyaşar mövqe qazanmış böyük siyasətçi, dövlət xadimi kimi yadda qalıb. Ümummilli Liderin xatirəsi Azərbaycanda, eyni zamanda, xarici ölkələrdə ehtiramla yad edilir.

**Politoloq Elçin Alıoğlu "Şərq"ə deyib ki, Heydər Əliyev tarixi şüurda böyük bir şəxsdir:**

"Ümummilli Lider intibahın, gücün, əqlin, mənəviyyatın simvoludur. Heydər Əliyevin həyatı sadəcə hadisələr məcrası deyil. Eyni zamanda bir şəxsin yaşadığı mübarizə, ağrı, qələbə, sevinc və kədərdir. Onun bütün qələbələri mübarizə nəticəsindədir. O, hər itkisindən sonra iradəsini daha da möhkəmləndirib. Hər fəth etdiyi zirvə isə onun növbəti zirvəyə körpüsü olub. Heydər Əliyevin şəxsiyyətinin miqyasını başa düşmək üçün onda adicə lider, siyasətçi, dövlət başçısı görmək lazım deyil. O, hissləri, duyğuları, istəkləri, arzuları bir məqsədə - xalqına xidmətə adamış bir adam idi. Ümummilli Lider haqqında laqeyd danışmaq mümkünsüzdür. Əfsuslar olsun ki, mənim onunla şəxsi görüşüm olmayıb. Amma bir neçə dəfə onun tədbirlərində fəal iştirak etmişəm və ünsiyyətimiz baş tutub. Onun fiquru sanki Azərbaycanın özündə bir yol idi. Ciddi, məğrur və içində bir böyüklük vardı. Onu böyüdən torpaq kimi özü də nə zamana, nə şərtlərə, nə hadisələrin axarına tabe olurdu. Həmçinin daxilində yumşaqlığı və möhkəmliyi mövcud idi. Heydər Əliyevi anlamaq üçün onun tərcümeyi-halının, həyat yolunun səhifələrinə baxmaq yox, Azərbaycan tarixinin nəbzini yoxlamaq lazımdır. Çünki Heydər Əliyev özünəməxsus yox, bir bayraq kimi, səs kimi, mahnı kimi bütünlüklə xalqına məxsus idi. Onun taleyi də külək kimi idi. Ulu Öndər qəfil sürətlə insanın sümüyünə qədər işləyəcək sözlərlə və baxışlarla yadda qalıb".

**Politoloqun fikrincə, Ümummilli Liderin müstəqillik tariximizin ən qaranlıq vaxtında hakimiyyətə gəlişi də təsadüfi deyildi:**

"Bu, taleyin qaçılmaz, amma çox yumşaq və aşkar jesti idi. Heydər Əliyevin portretindəki cizgilərə diqqətlə baxın. Onun baxışları əsrlərin müdrikliyi, insanın polad iradəsi olmaqla yanaşı, qərarların yükünü çiyninə almış bir adam baxışıdır. Onun baxışlarına diqqətlə baxsaz, görəcəksiz ki, qəlbinin böyüklüyündə laqeydlik yoxdur. Heydər Əliyevin simasını sanki bir zaman kəsib. Bu sima Azərbaycanın həyatı və tarixi xəritəsidir. Bu gün sadəcə onu yox, keçdiyimiz yolu anırıq. Ümummilli Lider tarixdən də böyükdür. Heydər Əliyev iradənin və sevginin xalqın gərdişini dəyişməsi, insanın keçmişlə gələcəyi arasında dura biləcəyi, əsl liderliyin hakimiyyət yox, xidmət olması barədə bir dərsdir. O, müdriklik, iradə, xalqına və torpağına sonsuz sevginin simvoludur. Heydər Əliyev yalnız öz vaxtında yaşayan yox, vaxtı yaradan və ona sevgisini, inamını, sonsuz nikbinliyini xalqına hədiyyə verən şəxsdir".

**Aynur Babazadə**

# Bəşər Əsəd ortaq düşməndir

## Fidan və Blinken danışıqlarında 3 əsas tezis önə çıxır




**"Birincisi, tərəflərin uzlaşması çətin görünür. İkincisi, Türkiyənin PKK-ya qarşı əməliyyatlara başlaması istisna deyil"**

**Türkiyənin xarici işlər naziri Hakan Fidan və ABŞ Dövlət katibi Antoni Blinken arasında dekabrın 13-də görüş olacağı gözlənilir. Suriyada Bəşər Əsədin devrilməsi fonunda bu görüş diqqət çəkir.**

Aydın məsələdir ki, tərəflər arasında əsas müzakirə mövzusu Suriyadakı son proseslər olacaq. Türkiyənin Suriyanın şimalında PKK-ya bağlı qüvvələrin mövcudluğuna son qoymaq üçün xəbərdarlıq edəcəyi, əks halda, əməliyyata başlayacağı gözlənilir.

**Politoloq Turan Rzayev "Şərq"ə deyib ki, Bəşər Əsəd ABŞ, Türkiyə, İsrailin ortaq düşməni idi. Əsədin devrilməsindən sonra üç ölkənin qarşı-qarşıya gələcəyi bəlli idi. Ekspert vurğulayıb ki, xüsusilə Ankara ABŞ və İsrailin ortaq planı olan regionda ikinci bir kürd subyektinin yaranmasını birmənalı qəbul etmir:**

"Buna görə də H.Fidan A.Blinkenə son söz kimi "Ya siz bununla məşğul olursunuz, ya da biz nə lazımdırsa edəcəyik" deyəcək. Türkiyə və ABŞ əvvəllər də Suriyada kürd məsələsində üzə-üzə gəlib. Lakin dövrün şərtlərinə uyğun olaraq Türkiyə ABŞ ilə gərginliyi ya uzatmayıb, ya da Suriyada nüfuz bölgüsünə razı olub. Lakin hazırda vəziyyət fərqlidir. Ankaranın konkret tələb irəli sürməsinin üç əsas səbəbi var. ABŞ YPG-nin dövlətləşmə prosesini böyük ölçüdə tamamlayıb. Suriyanın hazırda parçalanmaya münasib olması da bu prosesi riskli edir. Digər tərəfdən, İsrail də bunu istəyir. ABŞ-nin başı daxili işlərinə qarışıb. Bayden dönəminin bitməsi, Trampın hakimiyyətə gəlişi kimi məsələlər hələ bir müddət davam edəcək. Yəni ABŞ-nin tezliklə Suriyaya diqqət ayırması real görünmür".

*Analitikə görə, Türkiyə Suriyada mərkəzi hakimiyyətin qurulmasını, həmçinin Ankara ilə normal münasibətlərə malik Suriya arzulayır: "Yəni bu ölkənin parçalanması, ya da ABŞ ilə İsrailin arzuladığı tərzdə federallaşmasını qəbul etmir.*

Bütün bunlara baxmayaraq, ABŞ-nin Türkiyənin təklifini qəbul etməsi çətin məsələdir. Çünki Vaşinqton illərdir Rojava kürdlərinə dəstək verir, külli miqdarda vəsait sərf edir. Digər tərəfdən, İsrail də bu məsələdə ABŞ-nin geri addım atmasını istəmir. Hətta mümkündür ki, İsrail Baş naziri Benyamin Netanyahunun ABŞ-yə səfəri zamanı regionda bir kürd dövlətinin yaranmasına dair məsələ həm Bayden, həm də Trampla müzakirə edilib. Ümumiyyətlə, Trampın qələbəsində İsrail faktoru böyük rol oynayır. Lakin onu qarşıda çox ciddi və çətin siyasi proseslər gözləyir.

O ki qaldı Hakan Fidan və Antoni Blinken arasında baş tutacaq danışığa, burada 3 əsas tezis önə çıxır. Birincisi, tərəflərin uzlaşması çətin görünür. İkincisi, Türkiyənin PKK-ya qarşı əməliyyatlara başlaması istisna deyil. Üçüncüsü isə ABŞ Tramp hakimiyyətə gələnə qədər Türkiyənin başını qatmağa çalışacaq".

**İsmayıl**

# Türkiyənin hədəfi bufer zonanı genişləndirməkdir

## Suriyada Vaşinqton və Ankaranın maraqları toqquşur



**Türkiyə Suriyanın şimalında PKK ilə əlaqəli qüvvələrin mövcudluğuna son qoymağın zəruriliyi ilə bağlı ABŞ-yə xəbərdarlıq edəcək. Bu barədə "CNN Türk" məlumat yayıb.**

Əks halda, Ankaranın özü bölgəni terrorçulardan təmizləmək üçün tədbirlər görəcək. Onun sözlərinə görə, Türkiyə tərəfinin bu mesajı Ankarada xarici işlər naziri Hakan Fidan və ABŞ dövlət katibi Antoni Blinken arasında dekabrın 13-nə planlaşdırılan danışıqlarda səslənəcək.

**Politoloq Sultan Zahidov "Şərq"ə söyləyib ki, gözlənilən səfər zamanı Suriyadakı ən son baş verən hadisələr və hazırkı hökumətin siyasəti müzakirə olunacaq: "**

Amerika Birləşmiş Ştatlarının Suriyada uzun illərə dayanan maraqları mövcuddur. Həmin maraqları təmin etmək üçün bu günə qədər orada 900-ə yaxın hərbi kontingent yerləşdirib. Digər tərəfdən, ABŞ Yaxın və Orta Şərqdə kürd, Suriyada YPG/PYD qruplaşmalarını dəstəkləyir. Bu qruplaşmalar isə Türkiyənin təhlükəsizliyinə ciddi təhdid törədirlər. Çünki Türkiyədə həmin qruplaşmaların bir qanadı olan PKK terror fəaliyyətləri ilə məşğul olur. Türkiyənin Suriyada əməliyyat keçirməsinin və maraqlarının olmasının əsas səbəblərindən biri Suriyadan terrorun bəslənməsidir. Belə olan halda ABŞ və Türkiyənin maraqları toqquşur. Bu baxımdan Türkiyə PKK ilə olan məsələsini Amerikayla daima müzakirə edir. ABŞ hansısa tədbir görməsə, Türkiyə birmənalı şəkildə məsələyə müdaxilə edəcək və hərbi əməliyyat həyata keçirəcək. Türkiyə belə addımları əvvəllər də atıb və daha da genişləndirmək ehtimalı böyükdür. Hazırda Suriyada müxalif qüvvələr YPG-nin fəaliyyət zonasını daraldırlar. Menbiç radikal kürd qruplaşmalardan təmizləndi. İndi isə Türkiyənin hədəfi bufer zonanı genişləndirməkdir".

**Şahanə Ziyad**

# Nazir etiraflarında çox haqlıdır

## Müəllimlərin əlindən bütün səlahiyyətlərini alıb, sonra da ondan xaruqələr gözləyirik

**Son dövrlərdə orta məktəblərdə baş verənlər, şagirdlərin davranışları ilə bağlı neqativ xəbərlər daha intensiv şəkil almağa başlayıb. Xüsusilə məktəblilərin bir-birinə qarşı kobud rəftarının, hətta zorakılıq hallarının yaşandığını, bunların isə telefonlarla çəkilərək sosial şəbəkələrə qoyulmasını tez-tez müşahidə edirik.**



**"Nazir məktəblərin şagirdlərin öhdəsindən gələ bilmədiyini demir, dolayı yolla valideynləri övladlarına düzgün tərbiyə verməyə çağırır"**

Məktəbli yoldaşını bıçaqlayan, döyən şagirdlərin müəyyən davranış pozuntularının olduğu isə açıq-aşkar ortadadır. Bir çoxları bu cür xoşagəlməz məqamlarda valideynləri günahkar bilsə də, böyük əksəriyyət baş verənləri məktəb rəhbərliyi və müəllimlərin məsuliyyətsizliyi, hətta səriştəsizliyi kimi qələmə verməyə çalışır.

Elm və təhsil naziri Emin Əmrullayev isə jurnalistlərin bu istiqamətdəki suallarını cavablandırarkən deyib ki, bir milyon yarım şagirdi olan sistemdə gün ərzində hansısa şagirdlərin, valideynlərin və ya müəllimlərin arasında münaqişə tipli halların olması qaçılmazdır: "Biz bir milyon yarım şagird, onların valideynləri və iki yüz minə yaxın müəllimdən danışırıq. Baş verən bütün hallara qanunvericilik çərçivəsində baxılmalıdır. İnzibati qaydada pozuntular, cinayət xarakterli məsələlər varsa, bunları hüquq-mühafizə orqanlarına yönləndiririk. Təlim-tərbiyə il bağlı məsələdirsə, problemi valideynlərlə həll etməyə çalışırıq".

Hazırda ölkəmizdə 4432 orta ümumtəhsil məktəbində 1,6 milyon şagirdin təhsil aldığını xatırladan təhsil eksperti Kamran Əsədov deyib ki, oğlanlar arasında 21, qızlar arasında 11 faizdə birinin digərinə psixoloji zorakılığı müşahidə olunur: "Çox təəssüflər olsun ki, bulinq halları pandemiyadan sonra daha da artmağa başlayıb. Bunun da bir neçə səbəbi var və ən vacib səbəblərdən biri şagirdlərin telefondan istifadə zamanı yaş xüsusiyyətlərinə və psixologiyalarına uyğun olmayan informasiyalar almasıdır. Xüsusən də "Tik-Tok" sosial şəbəkəsində onlar təhlükəli informasiyanın birbaşa qurbanına çevrilir. Bəzən görürük ki, sosial platformalarda məşhurlaşmaq istəyən şagirdlər digərlərinə qarşı fiziki və digər zorakılıqlar nümayiş etdirir və nəticədə şagirdlərimiz bu tipli təhlükəli hadisələrin qurbanına çevrilir. Bu gün mövcud vəziyyəti aradan qaldırmaq üçün yeni tədris proqramları hazırlamalıyıq. Etiraf edək ki, dünya artıq dəyişib, lakin bizim fənlər olduğu kimi qalıb və yaxud fənlərin daxilindəki informasiyalar artıq müasir dövrlə ayaqlaşmır. Beləliklə, mütləq şəkildə təhsil proqramlarına şagirdlərin psixoloji gərginliklərini aradan qaldıracaq, onlarda mənəvi öhdəlikləri artıra biləcək mövzular əlavə etməliyik. Biz şagirdlərdə daha çox şəxsiyyətyönümlü təhsil aşılamalıyıq. Şagirdlərimiz yeni bir şəxsiyyət olaraq cəmiyyətə daxil olmalıdır".

**Sosioloq Mətanət Məmmədovanın dediyinə görə, hər bir uşaq öz ailəsinin, yaşadığı cəmiyyətin güzgüsüdür. Onun sözlərinə görə, biz ailələrimizdə uşaqlarla necə davranırıqsa, onlar cəmiyyətdə nələrlə qarşılaşırlarsa, bu, zamanla onlarda xarakter formalaşdırır:**

"Bizim uşaqlarımız əvvəlki illərdəki uşaqlar kimi sakit ailələrdə, sakit cəmiyyətdə böyümürlər. Günümüzdə çoxsaylı gənc ailələr var ki, uşaqların yanında davranış qaydalarını bilmirlər, bir-birilərinə aqressiv münasibətlər nümayiş etdirirlər. Düşünmürlər ki, biz bunu uşağın olmadığı bir yerdə etməliyik. Uşağın yanında hər hərəkəti etmək olmaz, hər sözü danışmaq olmaz. Uşağın beyni ağ bir səhifədir. O, nəyə baxırsa, mənəvi cəhətdən nə ilə qidalanırsa, o səhifədə yazılır və sabah uşaq bağçasında da, məktəblərdə də həmin aqressiyanı göstərir. Hesab edirəm ki, bu problemlərin qarşısını almaq üçün maarifləndirmə işləri çoxaldılmalıdır. Xüsusilə analarla işlənməli, televiziyalarımızda verilişlər, sosial mediada çağırışlar vasitəsilə sürətlənməli və genişlənməlidir ki, valideynlər, xüsusilə analar uşaq böyütməyin, tərbiyə etməyin əsaslarını öyrənsinlər. Uşağı doğub dünyaya gətirmək bioloji ana olmaq deməkdir. Analıq hissinin, vəzifəsinin nədən ibarət olmağı, valideynlik hüququnun, borcunun nə olduğu anlaşılmalıdır. Çünki biz cəmiyyət arasında göndərdiyimiz uşaqlarla necə valideyn olduğumuzu təsdiq edirik. Əgər uşaq cəmiyyətdə hansısa bir səhvi törədirsə, məktəbdə hansı bir aqressivliyi, fiziki zorakılığı nümayiş etdirirsə, bunun günahı yalnız onun valideynlərindədir. Ona görə də ilk növbədə valideynlər özünütərbiyəyə keçməlidirlər. Onlar ailədə davranış qaydalarını bilməsələr, ər-arvad münasibətlərini tənzimləyə bilməsələr, uşaqları sosial şəbəkələrdən kənar tuta bilməsələr, zorakılığı aşılayan filmlərdən imtina etməsələr, cəmiyyətimizdə sakit təbiətli, düzgün, sağlam uşaqlardan söhbət aça bilmərik".

**Sosioloq-jurnalist Lalə Mehralı da "Şərq"ə açıqlamasında nazirin dediklərində böyük həqiqət payı olduğunu bildirib:**

"Biz gözləyirik ki, hər şeyi məktəb həll eləsin. Bütün problemləri, çatışmazlıqları, hətta uşaqlardakı davranış pozuntularını belə məktəblərin ayağına yazırıq. Bu uşaqlar məktəbə gedənə qədər evdə tərbiyə alırlar. 24 saatın 6-7 saatını məktəbdə olur, qalan vaxtı isə valideynlərinin nəzarətində olurlar. Biz evdə uşaqlarımızı necə böyüdür, hansı tərbiyəni veririksə, məktbədə də həmin tərbiyəni nümayiş etdirirlər. Ona görə də şagirdlər arasında baş verən zorakılıq hallarında valideynlər özlərini kənara çəkə bilməz, valideynlər öz məsuliyyətini dərk etməlidir. Bu günə qədər məktəblərdə qeydə alınan aqressiv vəziyyətlərin, şagirdlər arasında bıçaqlama, öldürmə kimi hadisələrin böyük əksəriyyətində məktəbə töhmət verilib, direktorlar vəzifəsindən azad edilib. Bu günə qədər qeydə alınan hansı hadisədə valideynlərin məsuliyyətə cəlb olunduğunu eşitmisiniz? 14 yaşlı uşaq cibində bıçaq gəzdirirsə, bunun məsuliyyəti niyə valideynin yox, məhz müəllimin, məktəbin ayağına yazılmalıdır. Hər halda bu uşaq hər axşam evinə gedib, səhər də evindən məktəbə gəlir. Bu baxımdan nazirin etirafı haqlıdır. O, bununla məktəblərin şagirdlərin öhdəsindən gələ bilmədiyini demiş olmur, sadəcə, dolayı yolla da olsa, valideynləri övladlarına düzgün tərbiyə verməyə çağırır".

Lalə xanımın fikrincə, müəllimlərin əlindən bütün səlahiyyətlərini alıb, sonra da ondan xaruqələr gözləyirik: "Çətin tərbiyə olunan uşaqların üzərində möcüzələr yaratmasını gözlədiyimiz müəllimlər bu gün heç bir ixtiyar sahibi deyil. Müəllim uşağa irad bildirə, onu tənbeh edə bilmir. Səsini bir balaca qaldıran kimi valideynlər müəllimin üzərinə "səlib yürüşü" edir. Bu cür valideynlərdən tərbiyə alan uşaqların özü belə müəllimə cavab qaytarır, söyüş söyür. Hətta şagirdlər müəllimin üzərinə hücum edir, müəllim qorxusundan şagirdə əl qaldıra bilmir ki, sabahı gün onu günahkar bilib işdən çıxaracaqlar. İndiki məktəblər təlim-tərbiyə yox, sadəcə, təhsil ocağıdır. Hansı ki, bu cür xaotik mühitdə şagirdlərə nəsə öyrətmək də heç mümkün olmur".

**Şəymən**

# Əsədin devrilməsi İrəvanın arzularının üstündən xətt çəkdi

## Ermənistan üçün ən böyük təhlükə indi Türkiyə və Azərbaycandan yox, məhz Rusiyadan gələ bilər



**Əsəd rejiminin devrilməsi ilə Ermənistan Suriyadakı dayaqlarını itirdi. Suriya həm də erməni terror təşkilatlarının, erməni hərbi batalyonlarının fəallıq göstərdiyi coğrafiya idi. Bu terrorçuların Əsəd rejimi, Suriya xüsusi xidmət orqanları ilə sıx əlaqəsi vardı.**

90 mindən çox Suriya ermənisinin Azərbaycanın ovaxtkı işğal altında olan ərazilərində məqsədli şəkildə məskunlaşdırılması, bu ərazilərin demoqrafik tərkibinin dəyişdirilməsi cəhdi müharibə cinayətinin tərkib hissəsi idi. Paşinyan isə populistcəsinə seçkilərdə Əsədi qələbə münasibətilə təbrik edərkən israrla Əsədin səylərinin on ildən çox vətəndaş müharibəsinin davam etdiyi Suriyada sülhün bərqərar edilməsi və dialoqun başlanmasına yönəldiyini deyərək onların ölkədə böhranın aradan qaldırılmasına kömək edəcəyinə ümidini ifadə edirdi. Məsələ burasındadır ki, özünü qərbpərəst kimi təqdim etməyə çalışan Paşinyan hakimiyyəti Şərqdəki antiqərb mövqeli hakimiyyətlərlə sıx əməkdaşlıq etməklə riyakarlıqdan əl çəkmirdi. O səbəbdən Əsədin devrilməsi Ermənistanda ciddi narahatlıqla qarşılanıb. Erməni ekspertlər hətta bunu İrəvan üçün faciə kimi şərh ediblər.

**"Alyans" Strateji Araşdırmalar Mərkəzinin rəhbəri Abutalıb Səmədov "Şərq"ə deyib ki, Suriyada Əsəd rejiminin devrilməsində Rusiya və İranın imkanlarının məhdud olması mühüm rol oynadı. Siyasi şərhçinin sözlərinə görə, Rusiya Ukrayna ilə apardığı müharibəyə görə Əsədə tələb olunan yardımı göstərə bilmədi:**

"İran da İsraillə münaqişədə olduğuna və Əsəd rejimini saxlamaq üçün tələb olunan gücə malik olmadığına görə reallıqla barışmalı oldu. Təbiidir ki, bu hadisə Türkiyənin həm Yaxın Şərqdə, həm də bölgəmizdə nüfuzunun artmasına gətirib çıxardı. Ancaq güman edirəm ki, burada Ermənistanın ciddi əndişələnməsinə ehtiyac yoxdur. Nə Azərbaycan, nə Türkiyə Ermənistan ərazisinə iddialıdır. Əgər Ermənistan həqiqətən də, reallıqları qiymətləndirib, təhlükələri hiss etsəydi, onu himayə edən Rusiyaya "meydan oxumazdı". Anlayardı ki, bölgədə Rusiya kifayət qədər imkanlara malik ölkədir. Xüsusilə Ermənistana münasibətdə hərbi-iqtisadi, siyasi rıçaqlara malikdir. Ancaq göründüyü kimi, Rusiya ilə gərginlik Ermənistanı o qədər də narahat etmir".

**Ekspert qeyd edib ki, əgər Ermənistan, həqiqətən də, Azərbaycan və Türkiyə ilə bağlı müəyyən narahatlıq hiss etsəydi, konstitusiyanı dəyişməyəcəyi barədə bəyanatlar verməzdi:**

"Həmçinin mümkün qədər tez zamanda sülh sazişinin imzalanmasına nail olmağa çalışardı. Çünki sazişin qarşısında əsas maneə Ermənistanın qeyri-konstruktiv mövqeyi və konstitusiyadakı müddəalardır. Ermənistan isə öz mövqeyində təkid edir. Onsuz da Ermənistanın problemləri kifayət qədərdir. Ermənistan üçün ən böyük təhlükə Türkiyə və Azərbaycandan yox, məhz Rusiyadan gələ bilər. Ukrayna müharibəsi 2025-ci ildə çox güman ki, dayanacaq. Ən azından hansısa formada atəşkəs olacaq. Nəticədə Rusiyanın Ermənistanla daha ciddi məşğul olmaq imkanı yaranacaq. Yaxşı olar ki, Ermənistan bu barədə düşünsün və Azərbaycanı, Türkiyəni təhlükə kimi görərək suçlamasın".

**İsmayıl Qocayev**

**"Ermənistanın silahlanmasının arxasında duran əsas qüvvələrdən biri Fransadır. Təəssüf edirik ki, Fransa beynəlxalq hüquqa zidd olaraq Ermənistanın silahlandırılması proqramında iştirak edir".**



# Qərbin riyakarlığı

## Fransa Ermənistana öldürücü silahlar ötürür

Bunu Prezidentin köməkçisi Hikmət Hacıyev jurnalistlərə açıqlamasında deyib. O bildirib ki, Fransa tərəfindən Ermənistana verilən öldürücü silahlar var: "Ermənistan tərəfinin silahlanmasının arxasında duran əsas qüvvələrdən biri Fransadır. Ermənistan işğalçı və təcavüzkar dövlətdir. Bu baxımdan onun silahlandırılması mütləq məsuliyyətli məsələdir. Silahlar təkcə Fransa tərəfindən verilmir". H.Hacıyev vurğulayıb ki, Ermənistanın hərbi quruculuq siyasəti üzərində ciddi məhdudiyyətlər olmalı və bu ölkəyə hücum xarakterli silahları verən ölkələrin bunda ciddi məsuliyyəti məsələsinə də baxılmalıdır. O qeyd edib ki, bu məsələ beynəlxalq təcrübəyə əsaslanır: "Beynəlxalq münasibətlərdə işğalçı və təcavüzkar dövlətlərin ilk növbədə hərbi quruculuq və hərbi planları, habelə ordu quruculuğu prosesi istiqamətində müəyyən məhdudiyyətlər həyata keçirilir. Bu, istər İkinci Dünya müharibəsindən, xüsusilə də İraqla Küveyt arasındakı müharibədən sonra İraqa münasibətdə tətbiq olunan məhdudiyyətlərdə özünü göstərib. Biz də hesab edirik ki, Ermənistanın hərbi quruculuq siyasəti üzərində ciddi məhdudiyyətlər olmalı və Ermənistana hücum xarakterli silahları verən ölkələrin bunda ciddi məsuliyyəti məsələsinə də baxılmalıdır".

**Azərbaycan özü təzyiq siyasəti ilə Ermənistanı silahlandırmadan çəkindirməli, sülhə məcbur etməlidir**

**AĞ Partiyanın sədr müavini Əhəd Məmmədli "Şərq"ə deyib ki, Fransa, Hindistan, Yunanıstan və başqa ölkələrin Ermənistanı silahlandırmasında İrəvan hökuməti özü də maraqlıdır. Ekspertin fikrincə, bu da Ermənistanın revanş düşüncədə olmasından xəbər verir:**

"Ermənistan tərəfi silahlanmanı öz daxili işləri kimi qələmə verir və təhlükəsizlik məqsədilə etdiklərini deyirlər. Guya, Azərbaycanın aqressiyasından, hücumetmə ehtimalından özlərini qoruyurlar. Bakını da silahlanmada ittiham edirlər. İstənilən halda Ermənistanın silahlanması yaxşı heç nə vəd etmir. Əlbəttə, H.Hacıyevin vurğuladığı kimi, adətən təcavüzkar, işğalçı ölkələrdə hərbi quruculuğa məhdudiyyət qoyulur, silahlanmanın qarşısı beynəlxalq öhdəliklə alınır. Hətta sanksiyalar da tətbiq edirlər. Amma əfsuslar olsun ki, himayə etdikləri vassal ölkələrə qarşı bunu etmirlər. Xüsusən, xristian ölkəsi hansısa müsəlman ölkəyə hərbi təcavüz edibsə, o halda da həmin dövlətə məhdudiyyət tətbiq olunmur. Məsələn, Səddam Hüseynin rəhbərlik etdiyi İraq məğlub olandan sonra bu ölkəyə sərbəst silahlanma imkanı verilmir. İraq hələ də nəzarətdədir".

**Ə.Məmmədli vurğulayıb ki, İsrailə də eyni münasibətdir:**

"Halbuki İsrail Qəzza və Livanda törətdikləri cinayətlərə, qətliamlara, savaş suçlarına görə heç də Putin Rusiyanın Ukrayna ilə müharibəsindən geri qalmır. Buna rəğmən, İsrail heç bir təzyiqə, sanksiyaya məruz qalmır, əksinə, hərtərəfli dəstək verilir. Ermənistana yanaşma da belədir, İrəvana "yaşıl işıq"dır. Bu da Qərbin növbəti riyakarlığıdır, ikili standartlarıdır. O baxımdan Azərbaycan özü təzyiq siyasəti ilə Ermənistanı silahlandırmadan çəkindirməli, sülhə məcbur etməlidir. İrəvana güc yolu ilə təzyiq göstərilməlidir. İndiyədək Ermənistanı nəyəsə razı salmışıqsa, buna hərbi güc tətbiq etməklə nail olmuşuq. Ermənistanla danışıqlar yolu ilə nəyəsə nail olmaq imkansızdır. Bizim də başqa yolumuz qalmır. Əks halda sonradan siyasi reallıqlar və güc balansı dəyişə bilər ki, bizim üçün də çətin olar".

**İsmayıl Qocayev**

# Bakı Ermənistandan müsbət cavab gözləyir

## Azərbaycan təxminən 6 ay içində Zəngəzur dəhlizini işlək vəziyyətə gətirəcək

**Xarici işlər naziri Ceyhun Bayramov jurnalistlərə açıqlamasında deyib ki, Zəngəzur dəhlizinin açılması ilə bağlı Azərbaycan öz ərazisində işləri sürətlə davam etdirir, Araz körpüsünün tikintisi davam edir. Nazir bildirib ki, Ermənistanın öz öhdəliklərini yerinə yetirməsi ilə bağlı son müsbət qərar yoxdur.**




**Siyasi şərhçi Azər Həsrət "Şərq"ə vurğulayıb ki, Azərbaycanın bu məsələləri həll etməsi problem deyil:**

"Əvvəldən də həmin məsələlərlə bağlı heç bir çətinliyimiz yox idi. Dövlətimiz kifayət qədər səfərbər olunur, çox qısa müddətdə böyük layihələri icra edirik. Həmçinin Qarabağın, Şərqi Zəngəzurun dirçəldilməsi üçün böyük işlər görülür. Zəngəzur dəhlizinin Azərbaycan tərəfindən keçən hissəsi isə bizim üçün həlli çətin olmayan məsələlərdən biridir. Faktiki olaraq Azərbaycan həmin yolun tikintisini qurtarıb. Geriyə isə Ermənistan tərəfində olan hissə qalıb. Ermənistan isə özünün sıxıntılı halında həmin yolu Azərbaycan kimi sürətlə tikə bilməyəcək. Amma əsas məsələ Zəngəzur dəhlizi ilə bağlı qərarın verilməsidir. Ermənistan bu qərarı verərsə, hətta Azərbaycan kredit şərtləriylə yolun qalan hissəsini özü də tikə bilər. Yaxud da Zəngəzur dəhlizinə aid ərazi Azərbaycana icarə verilir və rəsmi Bakı öz maliyyəsi hesabı yolu tikir. Daha sonra Azərbaycan Ermənistanın hansısa müdaxiləsi olmadan həmin yoldan istifadə edir. Ona görə də Ermənistan vaxt itirməməli və Azərbaycan üçün yaşıl işıq yandırmalıdır ki, tezliklə işə başlasın. Əgər qərar verilsə, Azərbaycan təxminən 6 ay içində Zəngəzur dəhlizini işlək vəziyyətə gətirəcək. Bundan təkcə Azərbaycan-Ermənistan deyil, eyni zamanda Türkiyə, İran, Rusiya, Avropa və Şərq ölkələri istifadə edə biləcəklər. Buna görə də Ermənistan "oyunpozanlıq" etməməlidir. Onsuz da Zəngəzur dəhlizi ilə bağlı Azərbaycanın alternativ variantları var".

**Şahanə Ziyad**

# Fevralı da gözləyək

## Aİ missiyası Ermənistanı tərk etməsə, gərginlik artacaq



**Prezidentin köməkçisi Hikmət Hacıyev Avropa İttifaqının Ermənistandakı "mülki missiyası"nın fəaliyyətindən danışıb.**

O bildirib ki, Ermənistan ərazisində hər hansı üçüncü ölkənin qüvvələrinin yerləşdirilməsi narahatlıq doğuran faktordur. H.Hacıyev vurğulayıb ki, Azərbaycan tərəfi qarşılıqlı anlaşma və sülh şəraitində aparılan delimitasiya prosesində üçüncü tərəfin iştirakına hər hansı ehtiyac görmür. Oan görə də Ermənistan-Azərbaycan sərhədindəki Avropa İttifaqının missiyasının fəaliyyəti artıq başa çatmalıdır. Prezidentin köməkçisi qeyd edib ki, missiyanın müvəqqəti yerləşdirilməsinə Bakı da icazə vermişdi: "Missiyanın yerləşdirilməsi Praqada Azərbaycan Prezidenti İlham Əliyevin, Fransa Prezidenti Emmanuel Makronun, Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin və Ermənistanın Baş naziri Nikol Paşinyanın iştirakı ilə razılaşdırılmışdı. O missiya qısamüddətli olmalı idi. Biz gördüyümüz kimi, bu, davamlı bir missiyaya çevrilir və tərkibi, habelə coğrafi mandat ərazisi genişləndirilir. Ermənistan və Azərbaycan arasında qarşılıqlı anlaşma və sülh şəraitində aparılan delimitasiya prosesində üçüncü tərəfin iştirakına hər hansı ehtiyac görmürük". H.Hacıyev bəyan edib ki, biz Avropa İttifaqının missiyasının regionda sülhün möhkəmləndirilməsinə xidmət edən faktor olduğunu hesab etmirik: "Bu, narahatlıq doğuran faktordur".

**Politoloq Natiq Miri "Şərq"ə açıqlamasında bildirib ki, Avropa İttifaqı öz "mülki missiyası"nı bölgəyə göndərərkən, guya, Azərbaycan-Ermənistan şərti sərhədlərində baş verə biləcək atışmaların qarşısını almağı hədəfləmişdi. Ancaq bunun altında daha böyük geosiyasi məqsədlərin yatdığı ortadadır. Ekspert vurğulayıb ki, Aİ-nin ilkin mərhələdə bəlli zaman müddətində və az sayda missiya üzvü ilə bölgəyə yerləşdirilməsi əsas planın tərkib hissəsi idi:**

"Sonradan missiyanın tərkibi dəfələrlə artırıldı və fəaliyyət müddətini uzatdılar. İndi də say tərkibinin artırılmasını, missiyanın gələcəyə daşınmasını müşahidə edirik. Bu o deməkdir ki, Avropa İttifaqının perspektivdə Ermənistanda yerləşmək, hətta "müşahidə missiyası"nı hərbi struktura çevirmək niyyətləri də sezilir. Sadəcə, bunu "müşahidə missiyası" adı altında təqdim etdilər ki, Azərbaycanı və Rusiyanı qıcıqlandırmasınlar. Missiya zamanla coğrafi məkan boyunca yayılmaqdadır. Ermənistanın bütün sərhədləri bu missiyanın nəzarəti, müşahidəsi altındadır. Bu fakt göstərir ki, Aİ missiyası sadəcə, Azərbaycan-Ermənistan arasındakı prosesləri izləməklə qalmır, digər ölkələrlə bağlı kəşfiyyat məlumatları da toplayır. Ermənistan Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatından rəsmən çıxarsa, bundan sonra Rusiya hərbi bazasının Gümrüdən çıxarılması məsələsi gündəmə gələrsə, Aİ-nin missiyası Ermənistanın təhlükəsizliyinin sığortası kimi düşünülüb".

**Analitik diqqətə çatdırıb ki, bir tərəfdə Avropa Birliyinin özünün geosiyasi məqsədləri durursa, digər yanda Paşinyan hökumətinin də maraqları var:**

"Əlbəttə, istənilən halda Azərbaycanın maraqlarına uyğun davranış deyil. Azərbaycan dövləti bununla bağlı öz etirazını, narazılığını bildirir. Qısamüddətli missiya adı ailə bölgəyə yerləşmiş qüvvələrin uzunmüddətli qalmaq istəyi başqa geosiyasi niyyətlərdən xəbər verir. Ona görə də gələn ilin fevral ayında, yəni müddət bitən gün missiya öz fəaliyyətini sonlandırmalıdır. Aİ belə bir niyyətinin olduğunu gizlətməyib. Rəsmi Bakı da İrəvan hökumətinin diqqətinə çatdırır ki, missiya nəinki sülh prosesinə töhfə vermir, əksinə, ciddi əngələ çevrilir".

**İsmayıl Qocayev**

# Sülh sazişinin 2 maddəsi üzrə razılaşma alınmır

## Ermənistan hökuməti öz siyasətində toplumla, qurumlarla, kilsə ilə yekdil qərara gəlməlidir

**Azərbaycan xarici işlər naziri Ceyhun Bayramov sülh prosesinin hansı mərhələdə olmasına aydınlıq gətirib. Nazir bildirib ki, Ermənistanla sülh müqaviləsi layihəsi 17 maddədən ibarətdir və artıq 15 maddə razılaşdırılıb. Nazir qeyd edib ki, 2 maddə ilə bağlı işlər isə davam edir.**



Onun sözlərinə görə, sülh müqaviləsinin layihəsi 17 maddə və preambuladan ibarətdir: "Preambula və 15 maddə üzrə demək olar mətnlər tam razılaşdırılıb. 2 maddə üzrə isə açıq suallarımız var. Həmin açıq suallar üzrə son müddət ərzində işlər davam edir. Artıq bir neçə raund danışıqlar olub və mətn mübadilələri həyata keçirilib. Hələ ki, tam razılaşdırılmış varianta gəlmək mümkün olmayıb. İşlər davam edir". C.Bayramov qeyd edib ki, postmünaqişə dövründə Azərbaycan və Ermənistan sülh danışıqlarını və mətn üzrə mübadilələri davam etdiriblər: "Azərbaycan və Ermənistan arasında normallaşma istiqamətində danışıqlar davam etdirilib. Eyni zamanda sülh müqaviləsi üzrə də çoxsaylı görüşlər həyata keçirilib, həmçinin mətn üzrə mübadilələr davam etdirilib. Burada da açıq suallar qalmasına baxmayaraq, bəlli irəliləyişlər əldə edilib". XİN rəhbəri əlavə edib ki, Ermənistan Konstitusiyasında Azərbaycana qarşı ərazi iddiaları var: "Bu yaxınlarda Ermənistan Konstitusiya Məhkəməsinin qərarı bu işi daha da mürəkkəbləşdirib. Çünki məhz Ermənistan Konstitusiyasının preambulasında Ermənistan müstəqillik əldə edəndən sonra olan sənədə istinad var və o sənəddə də Azərbaycana ərazi iddiaları var".

**Prezidentin köməkçisi Hikmət Hacıyev də Azərbaycan-Ermənistan normallaşma prosesindən danışıb. H.Hikmət Hacıyevin sözlərinə görə, iki ölkə arasında açıq qalan müəyyən məsələlər var ki, onlara da işçi qaydada baxılmaqdadır. Prezidentin köməkçisi artıq iki ölkə arasında müharibə faktorunun qalmadığını diqqətə çatdırıb:**

"Azərbaycan öz ərazi bütövlüyü və suverenliyini tam şəkildə təmin edib. Ermənistan işğalçı qüvvələri də Azərbaycan ərazisindən çıxarılıb".

**Xəzər Universitetinin Tarix və arxeologiya departamentinin müdiri, tarix elmləri doktoru, siyasi şərhçi Telman Nüsrətoğlu "Şərq"ə açıqlamasında deyib ki, Azərbaycanın sülh sazişi ilə bağlı mövqeyi kifayət qədər aydındır və başadüşüləndir. Ekspertin sözlərinə görə, Ermənistan hökuməti öz siyasətində toplumla, qurumlarla, kilsə ilə yekdil qərara gəlməlidir:**

"İrəvan hökuməti açıq şəkildə bəyan etməlidir ki, Azərbaycanla sülhün əldə olunmasında, normallaşmada maraqlıdır, yoxsa yenə şovinist siyasətinə davam edəcək? Bunun üçün sadəcə, Paşinyan və iqtidarının qərar verməsi yetməz, erməni cəmiyyətinin bu məsələdə konsensusa gələrək yekun nəticə ilə çıxış etməsi lazımdır. Ermənilərin imzalayacaqları sazişin də nə qədər keçərli olacağı şübhəlidir. Tarix boyu dəfələrlə görmüşük ki, ermənilər verdiyi sözlərə, imzaladıqları sənədlərə xilaf çıxıblar. Ona görə də Ermənistanda keçirilməsi zəruri olan konstitusiya dəyişikliyi həm də bu məsələlərə aydınlıq gətirəcək. Ermənistan xalqı sülhdən yanadırsa, referendum da öz sözünü deməlidir. Təbii ki, konstitusiyada yer alan Azərbaycana qarşı ərazi iddiaları da çıxarılmalıdır. Bunların baş verəcəyi təqdirdə Bakı-İrəvan arasında sülhün əldə olunması yönündə əngəl qalmaz".

**T.Nüsrətoğlu vurğulayıb ki, digər mühüm məsələ Zəngəzur dəhlizi ilə bağlıdır:**

"Zəngəzur dəhlizi mütləq mənada açılmalıdır, bunun başqa yolu yoxdur. Ancaq bilmirik ki, İrəvan hökuməti danışıqlarda dəhlizlə bağlı üzərinə öhdəlik götürüb, ya yox. Sülh mətnində maddələrin nədən ibarət olduğunu bilmədiyimiz üçün konkret fikir bəyan etmək çətindir. Həmçinin erməni tərəfi sülh sənədinin imzalanması ilə 30 il ərzində Azərbaycana vurduqları maddi-mənəvi ziyandan qaça biləcəyini düşünürsə, səhv edir. Bu məsələ də kənarda qalmamalıdır. Yəni sülh məsələsinə yanaşma konseptual olmalıdır. Ermənistan hökuməti sülhə hazır olduğunu bəyan etsə də, erməni cəmiyyəti İrəvanla eyni fikirdə deyil. Sabah Paşinyan iqtidardan getdikdən sonra sülh müqaviləsini rahatlıqla poza, "konstitusiyaya ziddir" deyərək kənara ata bilərlər. Belə bir ehtimal da var".

**Siyasi şərhçi əlavə edib ki, Azərbaycanın haqlı tələbləri var:**

"Qərbi azərbaycanlıların öz dədəbaba yurdlarına dönüşü təmin olunmalıdır. Məsələyə ötən gün dövlət başçısı da toxundu. Bu da önəmli məqamdır. Əgər bəhs etdiyimiz nüanslar öz həllini taparsa, təbii ki, Azərbaycanın da əsas qayəsi sülhün əldə olunmasıdır. Ancaq yenə deyirəm, razılaşdırılmayan 2 maddənin nədən ibarət olduğu, Ermənistanın öz üzərinə hansı öhdəlikləri götürdüyü barədə məlumata sahib deyilik".

**İsmayıl Qocayev**




Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov jurnalistlərə açıqlamasında deyib ki, Ermənistanla sülh müqaviləsi ilə bağlı danışıqlarda yekun razılaşma yoxdur. Onun sözlərinə görə, sülh müqaviləsi layihəsi preambuladan və 17 maddədən ibarətdir:

"Preambula və 15 maddə üzrə mətnlər tam razılaşdırılıb. İki

# Paşinyan zamanla yarışır

## Ermənistan bunları etməsə, sülh imzalanmayacaq

maddə üzrə isə açıq suallarımız var. Hazırda açıq suallar üzrə danışıqlar davam edir. Ancaq hələ ki razılığa gəlmək mümkün olmayıb".

Nazir həmçinin xatırladıb ki, Ermənistan konstitusiyasında Azərbaycana qarşı ərazi iddiaları mövcuddur: "Biz Ermənistandan bu istiqamətdə qətiyyətli addımlar gözləyirik. Son zamanlar Ermənistan tərəfinin gətirdiyi arqumentlər bizi qane edə bilməz".

> **"Silahlanma İrəvanın sülhə deyil, növbəti revanşist müharibəyə hazırlaşdığını ortaya qoyur"**

Qeyd edək ki, Ermənistanın Baş naziri Nikol Paşinyan 1 ay əvvəlki müsahibəsində ilin sonuna qədər Azərbaycanla müqavilə imzalamaq üçün hər şeyi edəcəyini bildirib.

**Azərbaycan-Ermənistan arasındakı sülh proseslərini "Şərq"ə dəyərləndirən Siyasi və Hüquqi Araşdırmalar Mərkəzinin (SHAM) sədri Xəyal Bəşirov bildirib ki, münasibətlərin normallaşdırılması və sülh sazişinin imzalanması sahəsində artıq kifayət qədər iş görülüb:**

"Dörd ildən çoxdur ki, İkinci Qarabağ müharibəsi sona çatıb və Azərbaycanın təşəbbüsü ilə 2021-ci ilin əvvəlindən sülh istiqamətində müzakirələr başlanıb. Bu müddət ərzində Azərbaycan, sərt və yumşaq diplomatiya metodlarından istifadə edərək, Ermənistanla bir sıra mühüm uğurlar əldə edib. Bu uğurlar arasında, Ermənistanın iştirakı olmadan, ilk dəfə olaraq bəyanatların verilməsi və problemlərin müzakirə edilməsi yer alır. Həmçinin sərhədlərin delimitasiya və demarkasiya prosesi başlanıb və 12,7 km məsafədə bu proses həyata keçirilib. Azərbaycanın dörd kəndinin yenidən nəzarətə alınması isə Ermənistanın razılığı ilə baş verib. Bütün bu nailiyyətlər Azərbaycanın israrlı mövqeyi və Ermənistana göstərilən təzyiqlər nəticəsində mümkün olub. Ermənistan bu prosesi dəfələrlə heç bir əsas olmadan uzatmağa çalışsa da, müzakirələr davam edib. Ermənistanın sülhə yönəlik bəyanatları və rəsmi şəxslərinin beynəlxalq ictimaiyyətə sülh istədiklərini göstərən addımları yalnız görüntüdən ibarətdir. Əslində isə bu addımların arxasında başqa niyyətlər dayanır.

Biz bilirik ki, 17 maddədən ibarət sülh müqaviləsinin preambulası və 15 maddəsi üzrə razılığa gəlinib, amma qalan iki maddə ilə bağlı Ermənistan ya razılaşmaq istəmir, ya da yalnız bəzi şərtlərlə razılaşmağa çalışır. Bu isə bəzi maddələrin daha əhəmiyyətli, digərlərinin isə əhəmiyyətsiz olduğu təəssüratını yaradır. Halbuki sülh müqaviləsinin hər bir bəndi tam şəkildə razılaşdırılmalıdır. Əgər razılıq əldə olunmazsa, bu, sazişin imzalanmasını qeyri-mümkün edir".

**Ekspert əlavə edib ki, sülh müqaviləsi üzrə bütün məsələlər razılaşdırılsa belə, Ermənistan, əgər sülh müqaviləsinin nəzərdə tutduğu konstitusiya dəyişikliklərini həyata keçirmək niyyətində deyilsə və öz konstitusiyasının preambula hissəsinə, həmçinin SSRİ-nin dağılmasından sonra qəbul etdiyi müstəqillik bəyannaməsinə istinad edirsə - bu bəyannamə Azərbaycana qarşı ərazi iddialarını ehtiva edir - o zaman sülh müqaviləsinin imzalanması qəti şəkildə mümkünsüz olur:**

"Ermənistanın Azərbaycana qarşı ərazi iddialarından əl çəkməməsi və ATƏT-in Minsk qrupunun artıq mövcud olmayan bir institut olaraq rəsmi ləğvini qəbul etməməsi də bu mövqeyin davam etdiyini göstərir. Həmçinin Ermənistanın silahlanma prosesini davam etdirməsi və uzaqmənzilli silah sistemləri əldə etməsi onun sülhə deyil, növbəti revanşist müharibəyə hazırlaşdığını ortaya qoyur. Belə bir dövlətlə sülh müqaviləsinin imzalanması hazırkı perspektivdə real görünmür. Mən düşünmürəm ki, ilin sonuna qədər bu məsələ həllini tapsın. Ermənistanın revanşist mövqeyi davam etdikcə, sülh sazişi ilə bağlı danışıqlar dalana dirənməyə davam edəcək".

**Yusif Sultanoğlu**

# Bakıda instaqramda tanış olduğu 13 yaşlı qızdan 80 min aldı

## Məmmədov əldə etdiyi pul və qızıl-zinət əşyaları vasitəsilə özünə 8-ci kilometr bazarında ayaqqabı mağazası açıb

**Bakıda 13 yaşlı qızdan külli miqdarda qızıl və pul alan şəxs cinayət məsuliyyətinə cəlb edilib.**




Bakı Ağır Cinayətlər Məhkəməsinin hökmü ilə Cəlilabad rayon Göytəpə şəhər sakini 2003-cü il təvəllüdlü E.Məmmədova 6 il həbs cəzası verilib. O, Cinayət Məcəlləsinin 178.3.2-ci (Dələduzluq-Külli miqdarda zərər vurmaqla törədildikdə) maddəsi ilə təqsirli bilinib.

Araşdırmalar zamanı məlum olub ki, E.Məmmədov instaqram sosial şəbəkəsində orta məktəbin 7-ci sinif şagirdi olan Aytacla (ad şərtidir) tanış olub. Onlar arasında səmimi münasibət yaranıb və E.Məmmədov yeniyetmə qıza biznes qurmaq istədiyini bildirib. ("Qafqazinfo")

Bundan sonra Aytac yaşadığı evdəki seyfdən gizli şəkildə 2500 manat, 3 min dollar və 80 min manata yaxın dəyəri olan qızıl-zinət əşyalarını götürərək yaşadığı Xətai rayonu Süleyman Vəzirov küçəsindəki binanın dəhlizində E.Məmmədova verib.

Hadisənin üstü açılandan sonra Aytac E.Məmmədovun ona hədə-qorxu gələrək pul və qızılları aldığını bildirib. Faktla bağlı Cinayət Məcəlləsinin 182-ci (hədə-qorxu ilə tələb etmə) maddəsi ilə iş başlanılıb. Lakin məhkəmə istintaqı zamanı hədə-qorxu iddiası təsdiqini tapmayıb və gənc oğlanın məktəbli qızı aldadaraq külli miqdarda qızıl və pul alması müəyyən edilib. Bu səbəbdən məhkəmə ona dələduzluq cinayəti üzrə cəza təyin edib.

*Qeyd edək ki, E.Məmmədov əldə etdiyi pul və qızıl-zinət əşyaları vasitəsilə özünə 8-ci kilometr bazarında ayaqqabı mağazası açıbmış.*



# Telefon zəngi etirafdır

## Qərb Gürcüstan sınağından üzüağ çıxa bilmədi

**Fransa Prezidenti Emmanuel Makron hakim "Gürcü Arzusu - Demokratik Gürcüstan" Partiyasının təsisçisi və fəxri sədri Bidzina İvanişvili ilə telefonla danışıb. Onlar Gürcüstandakı cari vəziyyəti müzakirə ediblər.**

Makron Gürcüstandakı vəziyyətdən narahatlığını ifadə edib və bu vəziyyətin tam həllinə töhfə vermək istəyini bildirib. İvanişvili də öz növbəsində Fransa prezidentinə təşəbbüsə görə təşəkkür edib və birgə səylər ideyasını dəstəkləyib. İvanişvili və Makron əldə olunan irəliləyişi qiymətləndirmək üçün yaxın günlərdə təkrar təmasların olacağı barədə razılığa gəliblər. Telefon danışığı təxminən bir saat davam edib. Tərəflər bir neçə gündən sonra yenidən əlaqə saxlamaq barədə razılığa gəliblər.

Qeyd edək ki, Fransa Prezident Sarayı Emmanuel Makron və Bidzina İvanişvili arasında telefon danışığı barədə məlumat yayıb. Bəyanatda bildirilib ki, Makron həbs edilən bütün şəxslərin azadlığa buraxılmasını tələb edib və İvanişvilini sərbəst toplaşmaq və ifadə azadlığına hörmət etməyə çağırıb. Öz təşəbbüsü ilə "Gürcü Arzusu"nun fəxri sədri cənab Bidzina İvanişvili ilə danışan Fransa Prezidenti həm vətəndaş cəmiyyətinin, həm müxalifətin hədələnməsini, həm də hüquq-mühafizə orqanlarının dinc nümayişçilərə və jurnalistlərə qarşı zorakılığını pisləyib. O, özbaşına həbs edilən bütün şəxslərin azadlığa buraxılmasını tələb edib, toplaşmaq və ifadə azadlığına hörmət etməyə çağırıb. O, bir daha Gürcüstanın Avropa kursundan kənara çıxmasından məyus olduğunu bildirib və qəbul edilmiş və ya gələcəkdə qəbul ediləcək istiqamət və qərarların Gürcüstanla Avropa İttifaqı arasında münasibətlərə mütləq təsir edəcəyinə inandığını vurğulayıb. O, gürcü xalqının avropalı və demokratik istəklərinə hörmətlə yanaşaraq bütün siyasi qüvvələrin və vətəndaş cəmiyyətinin iştirakı ilə inklüziv dialoqa çağırıb.

Makronla İvanişvilinin telefon danışığının üzərindən bir gün keçməmiş Gürcüstanın Baş naziri İrakli Kobaxidzenin istefaya hazırlaşdığı deyilib.

Bildirilib ki, artıq hakim "Gürcü Arzusu" Partiyasının təsisçisi və fəxri sədri Bidzina İvanişvili müvafiq qərarı qəbul edib. İvanişvilinin Makronla telefon danışığının da Kobaxidzenin istefasını sürətləndirəcəyi qeyd olunub.

**Siyasi şərhçi Natiq Cəfərli sosial media hesabında bu mövzuya toxunub:**

- Fransa Ermənistan və Gürcüstanda "güc göstərmək", bölgədə Böyük Britaniyaya qarşı təsir mexanizmləri yaratmaq istəyir.

Gürcüstanda küçədə etiraz edənlərə haladır, vətəndaş mövqeləri var, amma işin kökündə seçkilər, rusiyapərəstlik, qərbdən imtina məsələləri yoxdur.

**Müxalifətin qalib gəlmə şansının az olduğunu dərk edən Qərb artıq hakim partiya ilə əməkdaşlıq mövqeyindən çıxış etməyə başlayıb**

Məsələnin kökü 2022-ci ildə Fransanın, Makronun israrı, tələbi və Fransa məhkəməsinin qərarı ilə İsveçrənin məşhur "Credit Suisse" Bankında İvanişvilinin 2,7 mlrd. funtsterlinq vəsaitinin dondurulması dayanır. Fransa və İsveçrə deyir ki, İvanişvili bu pulu Rusiyada qazanıb deyə hesabları dondurulmalıdır. Absurd iddiadır, çünki İvanişvili o pulu Rusiyada 2002-ci ilə qədər qazanıb, sonra nəyi var idisə satıb (həyat yoldaşı Yekaterina Xvedelidzenin adına olan torpaq sahəsi və Moskva ətrafında böyük villadan başqa), aktivlərdən çıxıb pulunu Fransaya, İsveçrəyə köçürüb, faktiki olaraq, Putinin yeni "elitasından" qaçıb. İvanişvili Saakaşvilinin dəvəti ilə Gürcüstana gəlib, 2008-2009-cu illərə qədər də yaxın sirdaş, dost, əqidədaş olublar. Sonra yolları ayrılıb, 2012-də "Gürcü Arzusu" Partiyasını quraraq seçkilər yolu ilə hakimiyyətə gəlib.

Makronun zəngi yeni anlaşma cəhdidir, deyə bilər ki, Fransa vətəndaşı olan Salome Zurabaşvilini geri çəkirəm, etirazları dəstəkləməyəcəyik, sənin də pullarını qaytaracağıq, təki bizim istəklərimizi yerinə yetir (istəklər məsələsi uzundur, onu bir gün yazaram). Yəni əgər bu gün Gürcüstandakı hadisələrə Rusiyanın dəxli varsa, bu elə Fransanın əli ilə var - hər iki ölkənin əsas hədəfi və rəqibi anqlosakslardır. Onlara qarşı istənilən formatda iş birliyinə gedirlər - elə Ermənistanda, Ukraynada və İranda da.

Hə, onu da deyim ki, İvanişvili Fransa vətəndaşıdır - yəni, bu gün Gürcüstanda, həm də, iki Fransa vətəndaşının qarşıdurması var və bu konfliktdə maraqlı olan, bu yolla da əsas moderator olmağa çalışan olan Makron var...

**Siyasi ekspert Asif Nərimanlı isə "Şərq"ə açıqlamasında deyib ki, Fransa Prezidenti Emmanuel Makronun İvanişviliyə telefon zəngi, əslində, Avropa İttifaqının Gürcüstanda keçirilən parlament seçkilərinin nəticəsini tanıması, aparılan mübarizədə Qərbin heç bir nəticə əldə edə bilməməsinin etirafı kimi qəbul edilməlidir. Fransanın timsalında Avropa İttifaqının dünyada yeni güc mərkəzi olmaq niyyətinə toxunan ekspert deyib ki, Gürcüstanda baş verənlər də onlar üçün bir növ sınaq mərhələsi idi:**

"Fransa Prezidentinin daha əvvəllər də Avropa ordusunun yaradılması ilə bağlı təklifi olub və bunu Avropanın təhlükəsizliyinin qorunması üçün vacib bir hal kimi qeyd edib. Yəni Avropa İttifaqı Amerikanın təsiri altında yox, müstəqil güc mərkəzi kimi çıxış etmək, dünyada söz sahibi olmaq istəyir. Lakin bu gün Gürcüstanda hakim partiyanın qələbəsi, onların Qərbə qarşı direnişi göstərir ki, Aİ bu sınaqdan üzüağ çıxa bilmədi. Gürcüstan müxalifətinin qalib gəlmə şansının xeyli az olduğunu dərk edən Qərb artıq hakim partiya ilə əməkdaşlıq mövqeyindən çıxış etməyə başlayıb. Hesab edirəm ki, Baş nazir Kobaxidzenin istefası ilə bağlı yayılan məlumatlar da təsadüfi deyil. Bu bizə Gürcüstanın sabiq Baş naziri İrakli Qaribaşvilinin istefasını xatırladır. Bu addım bir növ Gürcüstan siyasi elitasının Qərbə güzəşti kimi dəyərləndirilmişdi.

Bu gün də Kobaxidzenin istefa xəbəri ilə Gürcüstan Qərbə münasibətləri tam kəsmək istəmədiklərinin mesajını verir. Bilirsiniz ki, Qərblə bağlı ən sərt çıxışlar məhz baş nazirin dilindən səslənirdi. "Gürcü arzusu" Qərbə qarşı radikal mövqedən çıxış edən Kobaxidzeni qurban verərək Qərbə jest edir və Avropa İttifaqı ilə əməkdaşlığın mümkünlüyünə işarə edir".

**Şəymən Bayramova**

# Terrorun sonudur

## Türkiyə qərarlı olsa, planlar məhv olacaq

**Türkiyə Suriyanın şimalında PKK ilə əlaqəli qüvvələrin mövcudluğuna son qoymağın zəruriliyi ilə bağlı ABŞ-yə xəbərdarlıq edəcək. Əks halda, Ankaranın özü bölgəni terrorçulardan təmizləmək üçün tədbirlər görəcək.**



**Suriyada İsrail və ABŞ çalışacaq ki, mərkəzi hökumət zəif olsun və dağınıq bir ölkə kimi fəaliyyət göstərsin**

Məlumata görə, Türkiyənin bu mesajı Ankarada xarici işlər naziri Hakan Fidan və ABŞ dövlət katibi Antoni Blinken arasında dekabrın 13-nə planlaşdırılan danışıqlarda səslənəcək. Qeyd edək ki, Türkiyənin Milli İstihbarat Təşkilatı (MİT) Suriyada PKK/YPG terror təşkilatının Əsəd rejimindən ələ keçirdiyi silah və sursatları daşıyan konvoyuna qarşı uğurlu əməliyyat həyata keçirib. Əməliyyat nəticəsində 12 yük maşını, 2 tank və 2 sursat anbarı məhv edilib. MİT Əsəd rejiminin süqutundan sonra bölgədəki hadisələri yaxından izləyərək PKK/YPG-nin rejimlə əldə etdiyi razılaşmalar nəticəsində müxtəlif silah və ağır texnikaları ələ keçirdiyini müəyyən edib. Terrorçuların gecə vaxtı bu silah və sursatları yük maşınlarına yükləyərək bölgədən uzaqlaşdırmağa çalışdıqları aşkar edilib. Bu məlumatlar əsasında həyata keçirilən əməliyyatda, konvoyda olan 12 yük maşını, 2 tank və 2 sursat anbarı məhv edilib. Məlumata görə, terror təşkilatı ələ keçirdiyi bu hərbi avadanlıqları Türkiyəyə qarşı istifadə etməyi planlaşdırırdı. MİT mənbələri bildirir ki, Suriyada yaranmış mövcud şəraitdə terror təşkilatının sərhəd bölgələrində möhkəmlənərək Türkiyəyə qarşı fəaliyyət göstərməsinə icazə verilməyəcək və bu cür əməliyyatlar davam etdiriləcək. Bu əməliyyat MİT-in bölgədəki effektli kəşfiyyat və əməliyyat qabiliyyətini bir daha nümayiş etdirərək Türkiyənin milli təhlükəsizliyinə yönəlmiş təhdidlərə qarşı qətiyyətli mövqeyini ortaya qoyur.

**Siyasi şərhçi Məhəmməd Əsədullazadə "Şərq"ə deyib ki, Türkiyənin Suriyanın şimalında PKK-YPG terror təşkilatına qarşı hərbi əməliyyatları İsrailin kəskin reaksiyasına səbəb olub. Çünki İsrail və ABŞ Suriyanın şimalında yeni "kürd muxtariyyəti"nin qurulması planına malikdir:**

"İsrail HƏMAS-a görə Türkiyəyə qarşı PKK və YPG-ni dəstəkləyir. Həmçinin bu müstəvidə ABŞ ilə koordinasiyalı şəkildə fəaliyyət göstərir. İsrailin Suriyanın strateji hərbi hədəfləri vurması əsasən yeni hökumətin PKK-ya qarşı hərbi əməliyyatlar riskinin qarşısını almaqdır. Suriyada İsrail və ABŞ çalışacaq ki, mərkəzi hökumət zəif olsun və dağınıq bir ölkə kimi fəaliyyət göstərsin. Türkiyə rəhbərliyi Suriyada qərarlı şəkildə fəaliyyət göstərərsə, hər iki ölkənin planlarını neytrallaşdıra biləcək. Türkiyəyə qarşı PKK-nın yeni terror aktı törətməsi mümkündür. İsrail rəhbərliyi Suriyada sabit hakimiyyətin formalaşmasından sonra Fələstin dövlətinin qurula biləcəyindən narahatdır. Prezident İlham Əliyevin Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanla telefonla danışığı və Suriya məsələsində ortaq mövqedən çıxış etməsi, bir daha Azərbaycanın qardaş ölkənin yanında olduğunu göstərdi".

**İsmayıl**

# Fransa Afrika siyasətini Ermənistanda da sınayır

## İrəvana qarşı ən ağır sanksiyalar tətbiq olunmalı və onlar təzminat ödəməlidir

**Təəssüf edirik ki, Fransa beynəlxalq hüquqa zidd olaraq Ermənistanın silahlandırılması proqramında iştirak edir. Bunu Azərbaycan Prezidentinin köməkçisi, Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev jurnalistlərə açıqlamasında deyib.**



**"Qarabağda soyqırımı törədən şəxslər Ermənistanda sərbəst şəkildə gəzirlər. Ermənistan həmin şəxsləri Azərbaycana təhvil verməli və sülh üçün real addımlar atmalıdır"**

O bildirib ki, Fransa tərəfindən Ermənistana verilən öldürücü silahlar var. Həmçinin qeyd edib ki, Ermənistan tərəfinin silahlanmasının arxasında duran əsas qüvvələrdən biri Fransadır. Ermənistan işğalçı və təcavüzkar dövlətdir. Bu baxımdan onun silahlandırılması mütləq məsuliyyətli məsələdir. Silahlar təkcə Fransa tərəfindən verilmir. Prezidentin köməkçisi vurğulayıb ki, Ermənistanın hərbi quruculuq siyasəti üzərində ciddi məhdudiyyətlər olmalı və bu ölkəyə hücum xarakterli silahlar verən ölkələrin bunda ciddi məsuliyyəti məsələsinə də baxılmalıdır. O qeyd edib ki, bu məsələ beynəlxalq təcrübəyə əsaslanır. Eyni zamanda söyləyib ki, beynəlxalq münasibətlərdə işğalçı və təcavüzkar dövlətlərin ilk növbədə hərbi quruculuq və hərbi planları, habelə ordu quruculuğu prosesi istiqamətində müəyyən məhdudiyyətlər həyata keçirilir. Bu, istər İkinci Dünya müharibəsindən, xüsusilə də İraqla Küveyt arasındakı müharibədən sonra İraqa münasibətdə tətbiq olunan məhdudiyyətlərdə özünü göstərib. Biz də hesab edirik ki, Ermənistanın hərbi quruculuq siyasəti üzərində ciddi məhdudiyyətlər olmalı və Ermənistana hücum xarakterli silahları verən ölkələrin bunda ciddi məsuliyyəti məsələsinə də baxılmalıdır.

**Hərbi ekspert Emil Həsənli "Şərq"ə bildirib ki, beynəlxalq hüquqdan danışan, Birləşmiş Millətlər Təşkilatının (BMT) 5 üzvündən biri olan Fransa hüquqa və insanlığa zidd əməllərini davam etdirir:**

"Fransa Ermənistanı silahlandırır, çünki ondan maşa kimi istifadə edərək Cənubi Qafqazda mövcudluğunu artırmaq istəyir. Bundan əvvəl Fransa belə siyasəti Afrikada və bir çox yerlərdə aparıb. İndi isə Ermənistan üzərindən Cənubi Qafqazda həyata keçirmək niyyətindədir. Ermənistan isə odla oynayır. Rəsmi İrəvan Rusiyaya və Qərbə arxayın olub silahlanaraq torpaqlarımızı işğal etməklə nəyə nail oldu? Torpaqlarımızı özünə birləşdirə və dırnaqarası rejimi tanıtdıra bilmədi. Hazırda Ermənistanın öz mövcudluğu belə sual altındadır. Ermənistan Fransa ilə yanaşı Hindistan, Cənubi Koreya və Yunanıstandan silah alır, Amerika ilə hərbi əməkdaşlığını genişləndirir. Belə addımlar atmaqla Ermənistan necə sülhə gələ bilər? İqtisadiyyatı, insan resursları məhdud olan və kiçik əraziyə malik Ermənistanın bu qədər silahlanmasına səbəb nədir? Bunlar göstərir ki, Ermənistan xəstə ideyalarından əl çəkmir. Ümumiyyətlə, Ermənistan beynəlxalq hüquqa əks olan ən ağır cinayətləri həyata keçirib və işğal etdiyi əraziləri darmadağın edib. Bunların heç birini Fransa və Avropa guya görmür? Ermənistana ən ağır sanksiyalar tətbiq olunmalı və onlar təzminat ödəməlidir. Qarabağda soyqırımı törədən şəxslər Ermənistanda sərbəst şəkildə gəzirlər. Ermənistan həmin şəxsləri Azərbaycana təhvil verməli və sülh üçün real addımlar atmalıdır. Ancaq rəsmi İrəvan əksinə olaraq belə siyasət həyata keçirir, beynəlxalq hüquqdan dəm vuran dövlətlər isə onu dəstəkləyirlər".

**Şahanə Ziyad**

# Bu dəfə Türkiyəni hədəf seçiblər

## İranın mühafizəkar dairələri Əsəd rejiminin yıxılmasından dilxor olublar

**İranın mühafizəkar dairələri Türkiyə və Azərbaycana dil uzatmaqdan imtina etmək istəmirlər.**



İranın ali dini liderinin müşaviri Vilayəti Azərbaycanla İran arasında son hərbi təlimlərdən bu qənaətə gəlib ki, guya, Azərbaycan Zəngəzur dəhlizinin reallaşmasından imtina edib. Hərbi təlimlərin dəhlizə nə dəxli var? Dəhlizdən imtina etməmişik və bu mövzu ətrafında Azərbaycanla Ermənistan rəsmiləri arasında danışıqlar dondurulmayıb.

**Politoloq Elxan Şahinoğlu deyib ki, Azərbaycan İranla sərhədin daha yaxşı qorunması ilə bağlı ona görə təlimlər keçirib ki, sərhəd daha yaxşı qorunsun. Eyni zamanda İrandan Azərbaycana narkotik maddələrin keçirilməsinin qarşısı tamamilə alınsın. Həmçinin Tehran "niyə Azərbaycanla yalnız Türkiyə ilə hərbi təlimlər keçirir" yanaşmasından əl çəksin. Ancaq faydası yoxdur, yenə Azərbaycanı hədəf almaqda davam edirlər. Ekspertə görə, bu dəfə Türkiyəni hədəf seçiblər:**

"İranın mühafizəkar dairələri Əsəd rejiminin yıxılmasından yaman dilxor olublar. Bu, təbiidir. Əsəd Suriyada İranın maraqlarını təmin edir, İrandan göndərilən silah və maliyyənin ərazisindən qonşu Livandakı "Hizbullah" qruplaşmasına çatmasına yardımçı olurdu. Bu zaman Əsəd rejiminin minlərlə günahsız insanı öldürməsi, rəqiblərinə işgəncələr verməsi, türmələrdə çürütməsi İran İslam Respublikasının rəhbərliyini qətiyyən narahat etmirdi. Əksinə, İranın ali dini lideri Əli Xamneyi deyib ki, Əsədin süqutunda ABŞ, İsrail və "qonşu dövlətlərdən birinin" rolu olub. Xameneyi "qonşu dövlətlərdən biri" dedikdə Türkiyəni nəzərdə tutub. Yəni Xameneyinin məntiqinə görə, Əsəd rejimini ayaqda saxlamaq olardı, sadəcə, böyük qüvvələr buna mane oldu. Əsəd rejiminin ayaqda qalması üçün Suriya xalqının onə dəstəyi və ordusunun sədaqəti lazım idi. Hər ikisi Əsəddən üz çevirdi, əks halda, silahlı müxalifət döyüşsüz 12 günün içində şəhərləri və paytaxtı asanlıqla ələ keçirə bilməzdi. İranın mühafizəkar dairələri bu reallığı anlamaq əvəzinə Əsədin xiffətini çəkirlər".

**İsmayıl**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

## Azərbaycançılıq ideyasının təbliği:

# Xarizmatik şəxsiyyət, fenomenal siyasətçi

## Heydər Əliyev irsi bir məktəbdir, bu irsin daim öyrənilməsi və gələcək nəsillərə çatdırılması bütün dövrlərin çağırışıdır



**Müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, dünyaşöhrətli siyasi xadim, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin vəfatından 21 il ötdü. Dekabrın 12-də Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Fəxri xiyabanda xalqımızın Ümummilli Lideri Heydər Əliyevin məzarını ziyarət ediblər. Prezident İlham Əliyev Ulu Öndərin məzarı önünə əklil qoyub və Dövlət Himni səsləndirilib. Ümummilli Liderimiz Heydər Əliyev həqiqətən çox böyük şəxsiyyət idi.**

Siyasi karyerası erkən başlayan, gənc yaşlarından mühüm dövlət vəzifələrində çalışan Ulu Öndər Heydər Əliyev topladığı zəngin təcrübə ilə mükəmməl bir idarəçi kimi yetişmişdi. Yüksək pozitiv keyfiyyətləri sayəsində daha mötəbər mövqelərə yüksəlmiş, Azərbaycana rəhbərlikdən sonra böyük Sovetlər İttifaqının rəhbərlərindən biri olmuşdu. Azərbaycana rəhbərlik etdiyi birinci mərhələdə - 1969-cu il və ondan sonrakı illərdə Heydər Əliyev qurucu lider kimi tanınmağa başladı. Sovet İttifaqında mühüm vəzifə postuna qalxarkən Azərbaycanın fəxri, qüruru oldu. Ona görə ki, bir azərbaycanlının nəhəng dövlətdə mühüm vəzifə sahibinə çevrilməsi elə-belə məsələ deyildi. Heydər Əliyev bu etimadı özünün yüksək bacarığı, mükəmməl bioqrafiyası ilə qazanmışdı. Üstəlik, bizim üçün qürurlu idi ona görə ki, Heydər Əliyev burada ölkəsinin mənafeyini hər zaman qorudu. Ölkədə sənayenin, kənd təsərrüfatının inkişafı üçün nəhəng işlərə imza atdı. Ədəbiyyat, sənət, mədəniyyət sahəsi inkişaf etdi. Qarabağ münaqişəsinin Kremlin siyasi mətbəxində hazırlanması prosesinin qarşısının alınmasında o, cəsarəti ilə, vətənpərvərliyi ilə özünü Azərbaycan üçün sipər etdi. Qarabağda yaranmış kəskin münaqişəli vəziyyətlə bağlı SSRİ rəhbərliyinin ikiüzlü siyasətinə etiraz əlaməti olaraq 1991-ci ilin iyulunda Sovet İttifaqı Kommunist Partiyasının sıralarını tərk edəndə doğma xalqının ürəyində özünə əbədi taxt qurdu. Ən böyük gücü dərin, universal biliyində, qətiyyətində, işgüzarlığında, qeyri-adi yaddaşında, tükənməz səbrində, müsahibini təmkinlə dinləmək bacarığında, uzaqgörənliyində, qarşısına qoyduğu məsələni həyata keçirmək qabiliyyətində, müdrikliyində, siyasətçi keyfiyyətlərində, mahir diplomat olmasında, həmsöhbətinə təsir etmək gücünə malik olmasında idi. Dünya tarixi sübut edib ki, şəxsiyyətlərin gücü, ağlı, cəsarəti, siyasi iradəsi və müdrikliyi mənsub olduğu xalqın, onun yaratdığı dövlətin həyatında əvəzedilməz rola malikdir. Belə olmasaydı, xarizmatik şəxsiyyət, fenomenal siyasətçi olan Heydər Əliyev Azərbaycan müstəqilliyini itirmək, daxildən parçalanmaq təhlükəsi yaşayanda, onu siyasi böhrandan, xarici təhlükələrdən xilas edə bilməzdi. Heydər Əliyev Azərbaycanın başı üzərindəki qara buludları dağıtdı. Ölkəni parçalamaq istəyən xarici qüvvələrə yerini göstərdi. Azərbaycanı dəhşətli faciələrdən qorudu və adını tarixin səhifələrinə xilaskar, əsl lider kimi yazdırdı. İnam və etimad onu Azərbaycanın rəhbəri kürsüsünə yenidən qaldırdı. 1993-cü ildə böyük səs çoxluğu ilə Prezident seçildi. Heydər Əliyev ölkədə ilk növbədə ictimai-siyasi sabitliyi bərpa etdi, qeyri-qanuni silahlı dəstələri zərərsizləşdirdi. Separatçı meyillərə son qoyuldu. Təcavüzkar Ermənistanla atəşkəs elan olundu. Sırada Azərbaycanın sosial-iqtisadi inkişafı üçün vacib işlər gəlirdi və təbii ki, bu yöndə də təxirəsalınmadan addımlar atıldı. Heydər Əliyev təkcə daxili siyasətin mahir bilicisi deyildi, Azərbaycanın xarici siyasətinin problemlərini həll etməyi, bu siyasəti necə balanslaşdırmağı da bacarırdı. Ona görə də beynəlxalq təşkilatlar, xarici dövlətlər onun rəhbərliyi dövründə Azərbaycanla daha sıx işləməyə başladılar. Ulu Öndər Heydər Əliyevin siyasi rəhbərliyi dövründə milli maraqlar hər zaman öndə dayandı. Bakı-Tbilisi-Ceyhan neft, Bakı-Tbilisi-Ərzurum qaz kəmərlərinin çəkilişi məhz bu böyük insanın iradəsi və qətiyyətli mövqeyinin, uzaqgörənliyinin nəticəsi kimi reallığa çevrildi. "Əsrin müqaviləsi" Azərbaycanın dünya iqtisadi sistemindəki yerini müəyyənləşdirdi. Qısa müddətdə ölkəyə investisiya axınını stimullaşdıran müasir innovativ inkişaf modeli quruldu. Bu model özəl mülkiyyətçiliyə, sahibkarlığa, sərbəst rəqabətə yol açan, liberallığı özündə ehtiva edən və sosialyönümlü mahiyyət daşıyan iqtisadiyyat modeli idi. Sözsüz ki, bazar iqtisadiyyatının, sahibkarlığın inkişafı mütləq şərt idi və bu proses sürətlə start götürdü. Ulu Öndərin dərin məntiqli nitqi, natiqlik məharəti, söz seçmək bacarığı, auditoriya ilə ünsiyyət qurmaq səriştəsi onu dinləyənləri həmişə məftun edirdi. Nitqi dərin və konkret idi, müzakirə olunan məsələni milli mənafe, dövlətçilik mövqeyindən təhlil etməyi ustalıqla bacarırdı. Xalqın iradəsini əks etdirən siyasi kursdan kənara çıxmırdı.

Heydər Əliyevin milli-mənəvi taleyimiz, gələcəyə doğru inkişafımız üçün yadigar qoyduğu sərvətlərdən biri də azərbaycançılıq ideologiyası idi. Heydər Əliyev müstəqillik dövrünün dövlət ideologiyasını formalaşdırarkən XX əsr ziyalılarının əsərlərində milli ideya kimi türkçülüklə paralel olan azərbaycançılığı yeni tarixi şəraitdə milli dövlətçilik ideologiyası kimi sistemə saldı, ümummilli ideya, dünya azərbaycanlılarının ideologiyası, milli birlik təlimi kimi əsaslandırdı. Ulu Öndər Heydər Əliyevin, eyni zamanda milli birlik və sosial sabitliyin təmin olunması üçün də əhəmiyyətli işlər gördüyünü deyən deputat qeyd edib: "Ölkədə milli birliyin qorunması və sosial sabitliyin təmin edilməsi məqsədilə atılan bu addımlar olduqca əhəmiyyətlidir. Ümummilli Lider etnik və dini müxtəlifliyi bir arada yaşamağa, milli və dini tolerantlığı qorumağa yönələn sərəncamlar imzalayıb. Azərbaycanın müxtəlif etnik və dini qruplarının birgə yaşayışı, ümumi inkişafı və qarşılıqlı anlaşma şəraitində fəaliyyət göstərməsi üçün müvafiq tədbirlər həyata keçirilib. Bu tədbirlər ölkədə sülhün və sabitliyin qorunmasına böyük təsir göstərib. Beləliklə, Heydər Əliyevin rəhbərliyik etdiyi Azərbaycan regionun güclü dövlətinə çevrildi. Dahi Liderin Azərbaycanın siyasi və ictimai həyatında təsiri hələ də özünü göstərir, onun irsi Azərbaycanın siyasi və mədəni kimliyində mərkəzi rol oynamaqda davam edir.

**Millət vəkili, "İki sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadə deyib ki, müstəqilliyimizin dönməz xarakter alması Ulu Öndərin yorulmaz fəaliyyətinin, qətiyyətinin, zəngin idarəçilik təcrübəsinin, ən əsası Azərbaycan dövlətinə, xalqına bağlılığının nəticəsidir. Onun sözlərinə görə, dahi şəxsiyyət Azərbaycanın ən çətin günlərində, 1993-cü ilin iyun ayında xalqın təkidli tələbi ilə hakimiyyətə qayıtdığı ilk günlərdə bu əminliyi ifadə etmişdi ki, Azərbaycanın dövlət müstəqilliyi əbədi, sarsılmaz, dönməz olacaq:**

"Ümummilli Lider düşünülmüş və gələcəyə hesablanmış siyasəti nəticəsində müstəqilliyinin bərpasının ilk illərində böyük faciələrlə, təhlükələrlə üz-üzə qalan Azərbaycanı xaosdan, anarxiyadan, iqtisadi böhrandan xilas edərək inkişaf, tərəqqi yoluna çıxardı. Torpaqlarımızın işğalının qarşısı alındı. 1994-cü il mayın 12-də Ermənistanla atəşkəsin əldə edilməsi bütün sahələrdə dayanıqlı inkişafın təmin edilməsində əhəmiyyətli rol oynadı. Həmin il sentyabrın 20-də isə çağdaş tariximizə "Əsrin müqaviləsi" kimi daxil olan neft sazişi imzalandı. Bu saziş Azərbaycanın sabitlik diyarı kimi mövqeyinin möhkəmlənməsində, iqtisadi və siyasi müstəqilliyinin təmin edilməsində əhəmiyyətli rol oynadı. Azərbaycanın qısa müddətdə sabitlik diyarı kimi nüfuz qazanması ölkəmizlə iqtisadi əməkdaşlıqda maraqlı olan dövlətlərin sayının artmasını şərtləndirdi. Bu reallıq daim önə çəkilir ki, müstəqilliyimizin bərpasının ilk illərində ictimai-siyasi durumun gərginliyi Azərbaycanın zəngin iqtisadi potensiala malik olmasına baxmayaraq, ölkəmizlə əməkdaşlıq əlaqələrinin qurulmasında maraqlı olan dövlətlərin tərəddüdlərinə səbəb olmuşdu. Onlar yatıracaqları investisiyaların təhlükəsizliyinə tam əmin deyildilər. Lakin Ulu Öndər xalqın təkidli tələbi ilə hakimiyyətə qayıtdıqdan sonra xilaskarlıq missiyasını uğurla yerinə yetirərək Azərbaycanda sabitliyin təmin edilməsini prioritet məsələ kimi qarşıya qoydu. Artıq xarici investorlar yatıracaqları investisiyaların təhlükəsizliyinə tam əmin idilər. 1994-cü ildə imzalanan "Əsrin müqaviləsi" bunun təsdiqi oldu".

Parlament üzvü bildirib ki, 44 günlük Vətən müharibəsində qazanılan Zəfər, ötən ilin sentyabrında bir günlük antiterror tədbirləri nəticəsində suverenliyimizin tam bərpası Azərbaycanın 1993-cü ildən bu günədək keçdiyi inkişaf yolunun ümumiləşdirilmiş ifadəsi, Ümummilli Liderin İlham Əliyevə etimadının özünü doğrultmasının nümayişidir: "Bu gün azad Qarabağda və Şərqi Zəngəzurda aparılan möhtəşəm bərpa və quruculuq işlərinin əsasında Ulu Öndər Heydər Əliyevin uzaqgörən siyasəti, praqmatik strategiyası, milli dövlətçilik konsepsiyası dayanır. Xalqımız Ulu Öndərin xilaskarlıq və quruculuq missiyasını unutmur və bundan sonra da heç zaman unutmayacaq. Azərbaycan var olduqca Ulu Öndər Heydər Əliyevin ideyaları əbədi yaşayacaq. Azərbaycana bu gün hansı tərəfdən baxsaq Ulu Öndər Heydər Əliyevin xidmətlərinin miqyasının genişliyini, zənginliyini görərik. Onun fəaliyyətinin hər bir dövrü, hər bir sahəsi tədqiqat mövzusudur. Ümummilli Liderin xidmətləri ilə bağlı çoxlu sayda kitablar yazılıb və yazılmaqdadır. Ərsəyə gələn hər bir yeni nəşr, eyni zamanda məqalə bu xidmətlərə müxtəlif yanaşmaları ortaya qoysa da, ümumi fikir budur ki, Azərbaycanın bugünkü gerçəklikləri, dünyaya səs salan zəfərləri Heydər Əliyev siyasətinin təntənəsidir. Heydər Əliyev irsi bir məktəbdir, bu irsin daim öyrənilməsi və gələcək nəsillərə çatdırılması bütün dövrlərin tələbi, çağırışıdır".

**İsmayıl**

**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub**

# Cəmiyyətlə hələ işləmək lazımdır

## Orqan transplantasiyası ilə bağlı Azərbaycanda birmənalı fikir yoxdur

**2024-cü il ərzində 300-dən çox müxtəlif orqan transplantasiyası əməliyyatları icra olunub. Bunlar arasında böyrək və qaraciyər transplantasiya əməliyyatları üstünlük təşkil edir".**



Bu barədə Səhiyyə Nazirliyi Orqan Donorluğu və Transplantasiyası üzrə Koordinasiya Mərkəzinin sədri Yeganə Abbasova məlumat verib.

O bildirib ki, indiyə kimi beyin ölümü keçirdikdən sonra könüllü olaraq donor olmaq istəyib sağlığında Orqan Donorluğu və Transplantasiyası üzrə Koordinasiya Mərkəzinə müraciət edən şəxslərin sayı məxfidir.

O həmçinin qeyd edib ki, Səhiyyə Nazirliyi Orqan Donorluğu və Transplantasiyası üzrə Koordinasiya Mərkəzində ölümündən sonra orqanlarını bağışlamaq üçün xüsusi formanı doldurub qeydiyyatdan keçən şəxslərin sayı keçən illərə nisbətən 3 dəfə artıb.

Onun sözlərinə görə, yaxın gələcəkdə könüllü donor olmaq istəyən şəxslər mygov.az platforması üzərindən müraciət edə biləcəklər: "Lakin hazırda bu prosesə dəstək olmaq və donor olmaq istəyənlər üçün qurumumuza məxsus odtkm.gov.az rəsmi internet səhifəsində xüsusi olaraq yaradılan "Donor ol" bölməsi fəaliyyət göstərir. Həmin bölmə vasitəsilə könüllü donor olmaq istəyən hər kəs sadə və rahat bir şəkildə müraciət edə bilər. Bu addım, cəmiyyətimizin sağlamlığı və humanizm prinsiplərinə əsaslanaraq, donor olmağı daha əlçatan etmək məqsədilə atılıb".

**Hadisə ilə bağlı fikirlərini bölüşən sosioloq Üzeyir Şəfiyev "Şərq"ə söyləyib ki, Azərbaycanda ölümdən sonra orqanların bağışlanması cəmiyyətdə müzakirə olunan əsas məsələlərdəndir:**

"Bu məsələ ilə bağlı ictimai müzakirələr fərqli istiqamətlərdədir. Azərbaycanda insan orqanlarının transplantasiyası haqqında 2020-ci il oktyabrın 20-də qanun qəbul olunub. Bunun tətbiqi istiqamətində addımlar da var. Ancaq qeyd etmək istəyirəm ki, orqan köçrülməsi ilə bağlı cəmiyyətdə hələlik birmənalı fikir yoxdur. Çünki həm donor, həm prespint mənafeləri baxımından mübahisələndirilən məsələlər var. Digər tərəfdən, cəmiyyətin psixoloji hazırlığının hansı səviyyədə olduğunu da bilməliyik. Əslində, bu addım filantrop, humanist bir addımdır və insanların, paylaşmaq, dəstək durmaq, yardım etmək ənənəsindən qaynaqlanır. Azərbaycan cəmiyyəti üçün paylaşmaq, dəstək vermək ənənəvi bir haldır. Ancaq orqan transplantasiyası ilə bağlı məsələ Azərbaycan kimi ənənəvi cəmiyyətlər üçün yeni hadisədir. Burada cəmiyyəti bir çox məsələlər düşündürür. Bu məsələlərdən biri də donorun beyin ölümü və yaxud da ki, hansısa bir bioloji ölümünü təsdiqləmək ilə bağlı qərar nə dərəcədə obyektiv qərar ola biləcəyidir. Yəni burada bürokratik və yaxud da ki, saxta yanaşma olduğunu düşünürlər. Azərbaycanda da artıq kifayət qədər pasientlər var ki, onlar öz donorlarını gözləyir. Bu, təqribən iki minə yaxın bir rəqəmi əhatə edir. Ancaq donorun da hüquqları qorunmalıdır. Bu istiqamətdə insanlar inam və etibar mühiti haqqında düşünür. Yəni həkimlərin verdiyi qərara nə qədər etibar etmək olar məsələsi aydınlaşdırılmalıdır. Düzdür, bunu təftiş etmək üçün qanunvericilikdə nəzərdə tutulan məqamlar var. Ancaq qeyd etməliyəm ki, sözügedən proses ilə bağlı cəmiyyətlə hələ işləmək lazımdır. Yəni cəmiyyətdə bu istiqamətdə maarifləndirmə tədbirləri artırılmalıdır ki, insanlarımız bunu anlaqlı şəkildə başa düşsün. Eyni zamanda donorla bağlı qərar verən komissiyanın maksimum şəffaflığına, obyektivliyinə də nail olmaq lazımdır".

**Fidan Həmişəyeva**

# Maykl Makfol: Kiyev NATO-ya üzv olmaq üçün bəzi ərazilərdən imtina etməlidir



**ABŞ-ın Rusiyadakı sabiq səfiri Maykl Makfol Donald Trampı Ukraynadakı vəziyyəti həll etmək üçün Kiyevi NATO-ya üzvlük müqabilində ərazilərinin bir hissəsindən imtina etməyə razı salmağa çağırıb.**

AZƏRTAC xəbər verir ki, Maykl Makfol bu təklifi "Foreign Policy" jurnalı üçün yazdığı məqalədə səsləndirib.

Onun fikrincə, Donald Tramp Ukraynanın NATO-ya üzvlüklə əldə edəcəyi təhlükəsizlik müqabilində ərazisinin bir hissəsini Rusiyaya verməyə dəvət edən kompleks plan hazırlamalıdır. "Yalnız belə bir kompromis regionda daimi sülhün bərqərar olmasına gətirib çıxara bilər", - deyə məqalədə bildirilir.

Siyasətçinin sözlərinə görə, ABŞ-ın yeni seçilən prezidenti Ukraynanın alyansa üzvlük prosesinə açıq dəstəyini ifadə etməlidir ki, digər iştirakçı ölkələr qərarın ratifikasiyasını yubatmasınlar.

Maykl Makfol, həmçinin Donald Trampın Macarıstanın və Slovakiyanın Baş nazirləri Viktor Orban və Robert Fitso da daxil olmaqla Ukraynanın NATO-ya üzvlüyünə qarşı çıxan siyasətçilərə təsir etmək üçün böyük siyasi kapitala malik olduğunu vurğulayıb.

*Qeyd edək ki, Donald Tramp seçki kampaniyası zamanı Ukrayna münaqişəsini hələ inaqurasiyadan əvvəl həll etmək niyyətində olduğunu dəfələrlə dilə gətirib.*

# Nəbi Xəzri poeziyamıza özüylə təzə nəğmələr gətirdi

**Nəbi Xəzri poeziyası Azərbaycan şeirinə xəzri nəfəsi gətirən, zamanın sınaqlarından şərəflə çıxan, Azərbaycan ədəbiyyatında milliliyi və onun qədir-qiymətini uca tutan, özünə milyonlarla, saysız-hesabsız oxucu kütləsi qazandıran bir poeziyadır.**





**Çalış, Nəbi, gecə-gündüz yarat sən,**
**Bəd sözləri üz sinəndən yar, at, sən.**
**İnci seçib, dürr toplayıb yaratsan,**
**Səndən eldə bir nişanə qalar söz.**

Nəbi Xəzri ədəbiyyatımıza, söz sənətimizə qiymətli töhfələr vermiş, öz yaradıcılığı ilə poeziyamızın ən yüksək zirvəsində dayanıb. İlk şeir kitabı "Çiçəklənən arzular" 1950-ci ildə çapdan çıxıb. Daha sonra "Bakının səhəri", "Salxım söyüdlər", "Vətən və qürbət", "Qızımın nəğmələri", "Kim məni xatırlasa", "Dəniz, göy, məhəbbət", "Arzu", "İllər və sahillər", "Dərələr", "Son illərin sətirləri", "Şeir mənim üçün bir kainatdır", "Qəm dəftəri", "Peyğəmbər" və bir çox başqa kitablarını oxucuların ixtiyarına verib. "Təmiz ürək", "Sən laylay deyəndə", "Qara dəniz nəğməsi", "Günəşdə ləkə", "Kiçik təpə" və s. poemaların da müəllifidir.

Nəbi Xəzri tərcüməçiliklə də məşğul olub. M.Lermantov, D.Quralenşvili, A.Tvardovski, Ə.Şükuhi və başqa şairlərin şeirlərini tərcümə edib. Onun bir çox kitabları xarici ölkə ədəbiyyatında, müxtəlif dillərdə çap olunub.

Nəbi Xəzri yaradıcılığı bütün Azərbaycan xalqını, eləcə də bütün dünya xalqlarını əhatə edir. Ana torpağa bütün varlığı ilə bağlı olan şair, öz fikir dünyası ilə zəngin bir xəzinəyə malikdir.

**Şeir mənim üçün bir kainatdır,**
**Onun ulduzları, günəşləri var**
**Şeir mənim üçün sirli həyatdır**
**Onun öz sevinci, öz kədəri var.**
**Nə qədər qol-qanad açsa da ilham,**
**Mən yerin cazibə qüvvəsindəyəm.**

Nəbi Xəzri zamanın nəbzini tutan, bütün ictimai-siyasi hadisələri poetikləşdirməyi bacaran sənətkar olub. Elinə-obasına bütün varlığı ilə bağlı olan şair ürəyinin harayını misralarında dilə gətirib. Necə ki, şairin misralarında olduğu kimi:

**Ey, əziz Anam Azərbaycan,**
**Sənə bağlıyam Azərbaycan,**
**Ömrümün mənasısan, qardaşlıq dünyasısan Azərbaycan!**
**Anamın Anasısan Azərbaycan!**

Nəbi müəllim uzun illər Xarici ölkələrlə Dostluq və Mədəni Əlaqələr Cəmiyyətinin sədri olduğu üçün vətəndən kənarda da yaxşı tanınıb. Onun fəaliyyəti zamanı bir çox ölkələrlə mədəni əlaqələr qurulub və bunun müqabilində xarici dövlətlərdə Azərbaycan mədəniyyəti günləri keçirilib. Böyük bir kollektivlə bu səfərlərdə iştirak edilirdi. Nəbi Xəzri dünyanın bir çox ölkələrində Azərbaycan mədəniyyətini təbliğ edib. Hətta Nəbi müəllimin müsahibələrinin birində dediyi fikirləri nəzərdən keçirərdik. "Yaponiyada, Çində, ərəb və Afrika ölkələrində mədəniyyət günlərini tez-tez təşkil edirdik. Görüşlərimiz təqdirəlayiqdir, bu mənada ki, cəmiyyət bütün dünya ölkələrində mədəniyyət günləri keçirərək Azərbaycan xalqını təmsil edirdi. Hələ sovetlər birliyində yaşadığımız dövrdə İsveçdə səfərdə olduğumuz vaxt zalda çıxış edirdim. Biz rus dilində çıxış edirdik, sonra isə tərcümə olunurdu. Elə bu zaman qəribə bir səs yayıldı və bu, səsimizin eşidilməsinə mane oldu. Lakin buna baxmayaraq, çıxışımı sona qədər davam etdirdim. Tənəffüs zamanı 3-4 nəfər azərbaycanlı bizə yanaşaraq "Nəbi müəllim narahat olmayın, biz hazır gəlmişik, səs salan ermənilər idi, onları boğazlarından tutub bayıra atdıq" - dedilər".

**Dostları nə deyir?**

**Xalq şairi Qabil:** - Mən söz sənətimizin canlı klassiklərindən olan N.Xəzri ilə bir ədəbi nəslə mənsubam. Nəbi familiyasını doğmalarına bağışlayıb özünə Xəzri təxəllüsü götürdü. O, əsl nəğməkar şair, gözəl nasir, eyni zamanda tanınmış dramaturqdur. Tərcümələri də çox məşhurdur".

*"Əzizim Nəbi!"*

Sənin şeirlərini oxuyanda hiss edirsən, həm də inanırsan ki, poeziya səni yüksək, gözəl, işıqlı, çatılması mümkün olan arzu və ümidlərlə dolu bir aləmə çağırır. Bu şeirlərdə ahəngdarlıq, ürəkaçıqlığı, vüsətli fəza və əzəli gözəllik hiss edirəm. Həqiqətən poeziyanın hörmət və ləyaqətini qaldıran birisisən. Çox sağ ol ki, xalqımızın başını uca tutdun".

**Məmməd Arif.**

"Bir dəfə Yazıçılar İttifaqının Natəvan klubunda Səməd Vurğun bizimlə salamlaşdıqdan sonra Nəbinin əlini sıxıb dedi; Sənin "O cavanın yaylığı" şeirini maraqla oxudum, sən məndən yaxşı yazırsan". Nəbi isə bu tərifdən sanki qorxaraq həyəcanlandı, gülümsünüb nəzakətlə dedi: Sağ olun, siz məni həddən artıq təriflədiniz". S.Vurğun mənim dirsəyimdən tutub dedi: - Bu oğlan yaxşı şair olacaq". Nəbi Azərbaycanın səfalı yerlərini, uca çinarlarını, əfsanəvi Göy-gölünü, yaşıl meşələri, ürəkaçan füsunkar çaylarını özünəməxsus əsrarəngiz bir dildə tərənnüm edir. O, doğma Xəzərə elə vurulub ki, özünə Xəzri təxəllüsü verib. Nəbi Xəzri poeziyada olduğu kimi, həyatda da vətəndaşlığı, insanlıq borcunu yüksəkdə tutur, bunları müqəddəs sayır. Dostluqda sədaqətlidir, möhkəmdir, "mən filankəsə kömək etdim", "Ona arxa oldum" kimi sözləri heç vaxt dilinə gətirməyib. Bir sözlə, mənəvi saflıq kökləri Nəbi Xəzrini, onun sönməz poeziyasını daim ucaldır, yüksək zirvələrə qaldırır. O, ucalıq eşqilə yaşayır və yazır;

**Sən günəş,**
**Mən səndən**
**Nur alan Ayam.**
**Sən bir səs, mən isə**
**əks-sədayam.**
**Zirvəsən,**
**Zirvəyə qalxan cığıram,**
**Ucalıq eşqilə, dağa çıxıram.**

**Süleyman Vəliyev.**

**Xalq şairəmiz Mirvarid Dilbazi**

-"İnsanın həyatında daha yaxın bir dost var ki, o da ömür-gün yoldaşıdır. Nəbi Xəzrinin "Bir həftədə ağaran saçlar" şeiri də şairin humanizmindən yaranıb. Şair anasına, bacısına, bu adı daşıyanlara bəslədiyi həssas, yüksək insani duyğuları öz uşaqlarının anası olan qadına da bəsləyir. Bu şeiri oxuyan oxucunun sevinci ikiqat olur. Birinci ona görə ki, şairin ömür-gün yoldaşı ismətli, sədaqətli, fədakar həyat yoldaşı olub. Demək, şairin arxa cəbhəsi möhkəmdir. İnsanda bu keyfiyyətlər də istedad kimi taleyin bəxşişidir. Bu keyfiyyətləri görüb qiymətləndirən kişi təbiətindəki həssaslıqla da oxucunu və bütün qadınları sevindirir. Düşünürsən ki, bu mürəkkəb əsrimizdə yaxşı hörmət, məhəbbət zəminində qurulmuş ailə var. Şair inam dolu sabahımızı qələmə alanda da müasirdir. Çünki o, vətəndaşdır. Ona görə də vətəndaşlıq poeziyasının bayrağını uca tutur. O,ənənəvi olduğu qədər novator, novator olduğu qədər ənənəvidir. Nəbi Xəzriyə bəslənən böyük xalq məhəbbətinin "Sirri"də məncə bundadır".

"Hərdən öz-özümdən soruşuram: Bakıdan, Azərbaycandan, Moskvadan çox-çox uza bir diyarda mənə qəfildən Nəbi Xəzri poeziyası haqqında sual versələr, yazmağı, söz deməyi xahiş etsələr, nə deyə bilərəm? O yerdə ki, Nəbi Xəzri şeirindən yaxşı xəbərdardırlar və ya bu gözəl poeziya haqqında çox az şey bilirlər. Özüm öz sualıma dərhal cavab verirəm: çox şey deyə bilərəm. Əvvəlcə şairin gözəl misraları səslənəcək dilimdə, sonra şirin xatirələr dillənəcək. Nəbi Xəzri poeziyası, Nəbi Xəzri şəxsiyyəti barədə təsəvvürü olmayan dinləyicilər də maraqla qulaq asacaqlar bu söhbətə. Deyərdim ki, Nəbi Xəzri xalq içindən çıxmış, xalq yaradıcılığı çeşməsindən su içmiş bir sənətkardır. Onun heç kəsə oxşamayan təkrarolunmaz şair taleyi, yaradıcılıq tərcümeyi-halı var. Poeziyası Azərbaycan vəsiqəli, Azərbaycan pasportlu, Azərbaycan ünvanlı bir poeziyadır. O bizim yurdumuzun böyük keçmişini, qüdrətli bir gününü, daha işıqlı bir gələcəyini qələmə alır, harda olursa-olsun, hansı uzun eli dolaşırsa-dolaşsın, ruhən, mənən bu torpaqladır: dünyanın hansı cənnət guşəsini gəzirsə-gəzsin, ora Azərbaycanın gözü ilə baxır, onu Azərbaycanın adı ilə bağlayır.

**Əgər ki, yıxılsam çinar göstərin,**
**Mən ona söykənib arana baxım,**
**Gözlərim görməsə Göy-gölü verin,**
**Mən onun gözüylə cahana baxım.**
**Hər yerdə, həmişə sənsən gümanım,**
**Canım-gözüm mənim-Azərbaycanım.**

Əgər məndən soruşsaydılar, deyərdim ki, onun poeziyası inam poeziyasıdır, sətirlərində, misralarında, fikirlərində bir aydınlıq, bir həzinlik, bir büllurluq var. Çünki sənətkarın yolu aydındır, öz dəsti-xətti aydındır."

Xalq şairi Cabir Novruz: "Xəzri azərbaycanlıların anlayışında qızmar, günəşli odlar diyarına sərinlik gətirib, boğanaq havanı təmizləyən güclü xəzər küləyidir. Mənə elə gəlir ki, bu ad şairin meyillərini, daxili həyəcan və duyğularını obrazlı ifadə edən ən düzgün addır. O, şeirimizə təzə külək kimi əsib gəldi və özüylə təzə nəğmələr gətirdi".

**Əhməd Cəmil, 1973-cü il.**

Gənc yaşlarından şeirə, sənətə bağlanan, xalqımızın hiss və həyəcanını öz şeirlərində lirik bir dillə ifadə edən Nəbi Xəzri adı iftixarla çəkilir. Bu poeziya öz qidasını doğma Azərbaycan xalqının əzəmətindən, vüqarından alıb. Nəbi Xəzri lirikası xəlqilik, vətən torpağının tərənnümü, təbiət təsviri, insanın insana məhəbbəti, humanizm, daha nələr-nələr cəhətdən ucalıqdan baxılan bir poeziyadır.

Zəngin mənəvi xəzinə olan S.Mümtaz adına Dövlət Ədəbiyyat və İncəsənət Arxivində xalqımızın iki əsr (bəlkə də çox) ədəbiyyat və mədəniyyət xadimlərinin tarixini əks etdirən sənədlər arasında Nəbi Xəzrinin şəxsi sənədləri 83№-li fond altında 5000-dən çox sənəd, 3 siyahı, 272 saxlama vahidi olaraq qorunub saxlanılır. Sənədlər ilk dəfə 1966-cı ildə Arxivə şairin özü tərəfindən təqdim edilib. Sonralar sənədlərin zənginləşdirilməsində Arzu Babayevin (oğlu) rolu böyük olub. Həm xidməti, həm də şəxsi fond sənədləri (əlyazmalar, məktub və teleqramlar, tərcümeyi-hal sənədləri, təsviri sənədlər və s.) öz zənginliyi ilə seçilir.

2024-cü il dekabın 10-u xalq şairi, Dövlət mükafatı laureatı, ictimai xadim Nəbi Xəzrinin 100 (yüz) yaşı tamam olur. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 09.09.2024-cü il tarixli sərəncamına əsasən 100 illik yubileyi təntənəli şəkildə qeyd olunacaq. Bu yubileyin keçirilməsi dəyərli söz ustadına, onun səmərəli fəaliyyətinə verilən layiqli töhfədir.

**Könül Nəsibova**

## Məktəblərdə "şagird davaları"nı aradan qaldırmaq olar

### Münaqişə vəziyyətlərinin həlli üçün effektiv proqramlar hazırlanmalıdır



**"Bir milyon yarım şagirdi olan sistemdə gün ərzində hansısa şagirdlərin, valideynlərin və ya müəllimlərin arasında münaqişə tipli halların olması qaçılmazdır".**

Bu fikirləri elm və təhsil naziri Emin Əmrullayev jurnalistlərin suallarını cavablandırarkən deyib.

"Biz bir milyon yarım şagird, onların valideynləri və iki yüz minə yaxın müəllimdən danışırıq. Baş verən bütün hallara qanunvericilik çərçivəsində baxılmalıdır. İnzibati qaydada pozuntular, cinayət xarakterli məsələlər varsa, bunları hüquq-mühafizə orqanlarına yönləndiririk. Təlim-tərbiyə ilə bağlı məsələdirsə, problemi valideynlərlə həll etməyə çalışırıq", - deyə nazir bildirib.

**Təhsil eksperti Elnur Aydın "Şərq"ə bildirib ki, məktəblərdə münaqişələrin sayını azaltmaq və təsirlərini minimuma endirmək üçün bir sıra addımlar atıla bilər:**

"Geniş insan kütləsi ilə işləyən hər hansı sistemdə münaqişələr qaçılmazdır. Məktəblərdə münaqişələrin idarə edilməsi sistemi olmalıdır ki, bu da prosesləri nəzarətdə saxlamağa imkan verər. Məktəb idarəçiləri münaqişələrin qarşısını alma və onları idarəetmə üsulları üzrə xüsusi təlimlər almalıdır. Aktiv dinləmə və problem həlletmə bacarıqlarını inkişaf etdirmək vacibdir. Məktəblərdə kifayət qədər peşəkar psixoloqların olmaması münaqişələrə nəzarəti çətinləşdirir".

**Ekspertin fikirlərinə görə, psixoloji dəstək şagirdlər, valideynlər və müəllimlər üçün əlçatan olmalıdır:**

"Münaqişə vəziyyətlərinin həlli üçün effektiv proqramlar hazırlanmalı və tətbiq edilməlidir. Daxili intizam qaydaları şagirdlər və müəllimlər tərəfindən yaxşı başa düşülməlidir, aydın formada təqdim olunmalıdır. Müəllimlər və valideynlər arasında mütəmadi ünsiyyət təmin edilməlidir. Valideynlər də uşaqlarının davranışına nəzarət etmək və məktəblə əməkdaşlıq etmək üçün məlumatlandırılmalıdır. Şagirdlər arasında mehriban münasibətlərin təşviq edilməsi üçün tədbirlər görülməlidir. Məktəblərdə nəzarəti artırmaq üçün video nəzarət sistemləri, təhlükəsizlik tədbirləri üçün doğru sistem qurulmalıdır. Şagirdlər arasında konstruktiv dialoq və əməkdaşlıq mədəniyyətini təşviq edən dərslər keçirilə bilər. Münaqişələrin tamamilə qarşısını almaq mümkün olmasa da, bu kimi tədbirlərlə onların sayını azaltmaq olar".

**Fidan Həmişəyeva**

**Elan**

AzTU-nun nəzdində Bakı Texniki Kollecinin 2-ci kurs tələbəsi Süleyman Kənan Dünyad oğluna verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Bakı Biznes Universitetinin 3-cü kurs tələbəsi Süleymanlı Ayla Rauf qızına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.



(Əvvəli səh: 8-də)

# İşə təyyarə ilə gedirlər

## Bu məhəllələrdə yaşayanlar üçün təyyarələr də avtomobillər kimi adi bir nəqliyyat vasitəsidir

**Qonşular arasında təşkil edilən uçuş tədbirləri, maarifləndirici proqramlar və ictimai fəaliyyətlərlə məhəllə sakinləri daha sosial və aktiv həyat sürürlər.**

Kaliforniyadakı "Cameron Airpark Estates" bu məhəllələrin ən məşhurlarından biridir. 124 evin olduğu bu məhəllədə küçələrin xüsusi olaraq eni düz 100 metrdir. Bu, həm təyyarələrin, həm də avtomobillərin asanlıqla hərəkət etməsinə imkan verir. Beləliklə, siz avtomobilinizi idarə edərkən yanınızdan bir təyyarə keçə bilər. Bundan əlavə, hətta bu məhəllədə poçt qutuları və küçə lövhələri də aviasiya mövzusuna uyğun tərtib edilib. Təyyarələrin qanadları tərəfindən kəsilməməsi və ya təyyarələrə zərər verməməsi üçün onlar 3 metrdən qısa olacaq şəkildə hazırlanıb.

Məhəllə sakinlərindən Daniel Kuryvçak bu məhəllədəki həyatı belə xülasə edir: "Buradan normal hava limanına enmək təxminən bir saat çəkir. Sonra gözləmək və hava limanlarında nəzarət proseslərindən keçmək lazımdır. Siz məhəllədə qarajın qapısını açıb təyyarəni işə salıb, uçuş-enmə zolağına enib, qalxa bilərsiniz".

Məhəllə sakinlərindən biri, həvəskar pilot Burl Skaggs, 2003-cü ildə "Cameron Airpark Estates"ə köçdü və təqaüdə çıxana qədər 7 il ərzində hər səhər Palo Altodakı işinə uçdu. İndi təqaüdə çıxan, lakin hələ də daha müntəzəm uçan Skaggs o dövr haqqında belə deyir: "2,5-3 saatlıq maşın sürmək əvəzinə, təxminən 35-40 dəqiqəlik təyyarə səfəri edirdim. Artıq işə getmirəm, amma hələ oynamaq üçün bir təyyarəm var".

"Cameron Airpark Estates" kimi aviasiya məhəllələri kimi bir çox başqa hava parkları var. Məsələn, Floridadakı "Spruce Creek Fly-In Community" dünyanın ən böyük və ən prestijli aeroparklarından biri hesab olunur. Məhəllədə 5 mindən çox sakin və 1300-dən çox təyyarə var. Bu nəhəng kampus sadəcə bir aeroparkdan daha çox, o, həm də qolf meydançaları, restoranlar və müxtəlif sosial fəaliyyətlərlə yaşayış mərkəzinə çevrilib. Arizonadakı "Stellar Airpark" il boyu uçuşlar həyata keçirən hava limanına malikdir və məhəllə sakinlərinə 24/7 uçuş imkanları təklif edir. Burada da aviasiya ilə iç-içə bir həyat üçün hər şey düşünülüb. Onun böyük anqarları, birbaşa uçuş-enmə zolağı əlaqələri və bir çox sosial fəaliyyət imkanları var.

**Turan**

Təsisçi: "Şərq Media Qrup" MMC
Baş redaktor: Akif Aşırlı
Baş redaktorun ı müavini: Yusif Nəzərli

Reportyorlar qrupu:
Məlahət Rzayeva, Şeymən Bayramova, İsmayıl Qocayev, Aygün Tahir, Nihat Müzəffər, Şəhanə Ziyad, Nəzrin Vüqarqızı

Texniki heyət:
Rüfət Dadaşov, İmamcan Əliyev, İlahə İbrahimova, Nailə Cabbarlı, Fazilə Məmmədova

Qəzet "Şərq"in kompyuter mərkəzində yığılır, səhifələnir və "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap olunur

"Şərq Media Qrup" MMC-yə daxildir:
"Şərq" qəzeti və sherg.az saytı
www.sherg.az
e-mail: sherq-1996@mail.ru

Ünvan: Mətbuat prospekti,
"Azərbaycan" nəşriyyatı.
Telefon: 447-32-41
538-44-50, internet 538-44-15,
İndeks: AZ1073

Hesab nömrəsi:
Kapital Bank ASC Yasamal filialı
Kod: 200037
VÖEN: 9900003611
M/H: AZ37NABZ01350100000000001944
S.W.İ.F.T.: AIIBAZ2XXXX
AZM hesab nömrəsi:
AZ74AIIB400500G9441595487103
VÖEN 1307632991

Tirajı: 1500 Sifariş: 2885



## 301 min dollar dəyərində "iPhone"

Qanuni Sultan Süleyman detalı diqqət çəkdi

**Dubayda yerləşən lüks telefon istehsalçısı "Caviar" indiyə qədər istehsal edilmiş ən bahalı "iPhone 16 Pro Max" modelini təqdim edib. "Böyük, Dəhşətli, Möhtəşəm" olaraq xarakterizə edilən bu telefon arxa qapağındakı üç simvolik monarxın dizaynları ilə diqqət çəkib.**

"Şərq" xəbər verir ki, arxa üz qabığında tarixi şəxsiyyətlərin simvolizmini birləşdirən vizual detallar var. İvan Dəhşətli, Qanuni Süleyman və Böyük Karl kimi məşhur hökmdarların tacların yer aldığı dizaynda hökmdarların izləri var. Tacın arxa tərəfində İvan Dəhşətlinin Monomax papağından, Süleymanın qızıl dəbilqəsindən və Böyük Böyük Karlın Roma İmperiyasının tacının zərif daşlarından hazırlanmış xaç var. "Caviar" dizaynında 1 kiloqramdan çox qızıldan istifadə edib və 750 dərəcədə işlənmiş bu telefona 402 almaz, yaqut və sapfir əlavə edib. Qiymətli daşlar əsl dəri üzərində yerləşdirilərək telefona dəbdəbəli görünüş verir. Telefonun arxa qapağının dizaynında Şərq estetikası və botanika motivlərindən istifadə edilib. Bu xüsusi "iPhone 16 Pro Max", "Caviar"ın "Corona" kolleksiyasının ən nadir hissələrindən biri kimi təqdim edilib və yalnız 3 ədəd istehsal ediləcəyini bildirib. Bu kolleksiya telefonunun qiyməti 301 min 979 dollar olaraq təyin olundu.

**Turan**

## Əldə telefon yemək yemək təhlükəlidir



**İstər böyük, istər uşaq əldə və ya masada telefonla üz-üzə yemək yemək orqanizm üçün təhlükəlidir.**

"Medicina" xəbər verir ki, nutrisoloq Olqa Titova yemək zamanı telefonla ünsiyyəti qəti qadağan edir.

"Yemək zamanı əllər təmiz olmalıdır. Əlləri yuduqdan sonra onu telefona vurdunuzsa, artıq cihazda olan mikroblar əlinizə keçir. Bu zaman qidanın çirklənməsi baş verir.

Eləcə də telefona baxa-baxa yemək doymaq siqnalının vaxtında beyinə çatmasının qarşısını alır, bu isə orqanizmi yükləyir, həzm prosesini pozur. Smartfonların səthində çox sayda zərərli bakteriyalar toplanır, bu da qida zəhərlənməsinə və mədə-bağırsaq xəstəliklərinə səbəb ola bilər.

Tədqiqatlar göstərib ki, telefonu gün ərzində ən çirkli yerlərə qoyub götürürük və sonra onu təmizləmədən masaya aparır, uşağa verir, əlimizi vurub o əllərlə boşqaba, çörəyə toxunuruq. Hətta telefonla yemək yedikdə yeməyin dadı, keyfiyyəti belə dəyişir. Ona görə də fiziki, emosional sağlamlıq üçün telefon yemək masasında olmamalıdır. Yemək prosesi tam rahat və aydın beyinlə icra olunmalıdır".

## Yeganə türk o oldu

Dünyanın ən güclü 100 qadını açıqlandı



**Forbes jurnalı "Dünyanın Ən Güclü 100 Qadını" siyahısını açıqlayıb.**

Milli.Az xarici mətbuata istinadən xəbər verir ki , 33 trilyon dollarlıq iqtisadi gücü olan qadınlar siyahısında yeganə türk iş qadını Gülər Sabancı olub. İlk qadın menecer Gülər Sabancı siyahıda 80-ci yerdə qərarlaşıb. Forbes Sabancının karyerasına diqqət çəkərkən onun Sabancı Universitetinin qurucu prezidenti və Sabancı Fondunun prezidenti kimi Türkiyədə sosial məsuliyyət layihələrinə rəhbərlik etdiyini vurğulayıb. Bundan əlavə, onun Avropa Sənaye Dəyirmi Masasının (ERT) ilk qadın üzvü olması və MIT Enerji Təşəbbüsünün Xarici Məsləhət Şurasındakı rolu diqqət çəkən detallar arasındadır.

*Qeyd edək ki, siyahının ilk dörd yerində isə siyasi səhnənin önəmli adları öz izini qoyub. Siyahının başında Avropa Komissiyasının sədri Ursula fon der Leyen, ikinci yerdə Avropa Mərkəzi Bankının sədri Kristin Laqard, üçüncü yerdə İtaliyanın baş naziri Giorgia Meloni, dördüncü yerdə isə Meksika prezidenti Klaudiya Şeynbaum qərarlaşıb.*

## "Əbədiyyət indi başlayır"

Məşhur müğənni Selena Qomez sevgilisi Benni Blanko ilə nişanlanıb



**Məşhur müğənni və "Only Murders in the Building" serialının ulduzu Selena Qomez musiqi prodüseri Benni Blanko ilə nişanlandığını açıqlayıb.**

32 yaşlı Qomez xəbəri İnstaqram hesabında paylaşıb.O, brilyant üzüyünün və Blanko ilə gülümsəyən fotolarını paylaşaraq "Əbədiyyət indi başlayır" sözlərini yazıb. Blanko bu paylaşıma "Bu mənim arvadımdır" reaksiyasını verib. Cütlüyün nişan xəbərini bir çox məşhur adlar təbrik edib.

## Amerikada yeni ev alıb

Ana olmağa hazırlaşan Meqan Foks buna 8 milyon ödədi



**Aktrisa Meqan Foks Amerikada yeni ev alıb.**

Axşam.az xəbər verir ki, ana olmağa hazırlaşan 38 yaşlı aktrisa yeni ev üçün 8 milyon dollar ödəyib.

Qeyd edək ki, bu, Foksla 34 yaşlı sevgilisi, reper Qan Kellinin birlikdə ilk övladıdır. Meqanın keçmiş əri Brayan Ostin Qrindən üç övladı da var.



# İşə təyyarə ilə gedirlər

Bu məhəllələrdə yaşayanlar üçün təyyarələr də avtomobillər kimi adi bir nəqliyyat vasitəsidir



**Tarixin ən böyük münaqişələrindən biri təkcə müharibənin deyil, həm də həyat tərzinin kökündən dəyişməsinə səbəb oldu. O qədər ki, səmaya olan ehtiras tərk edilmiş uçuş-enmə zolaqlarını və anqarları qeyri-adi həyatın mərkəzinə çevirdi. Bu gün də bu məhəllə sakinləri işə getmək üçün maşın əvəzinə təyyarəyə minirlər.**

İkinci Dünya müharibəsi aviasiya tarixində dönüş nöqtəsi hesab olunur. Müharibə dövründə ABŞ-da və bir çox ölkələrdə təyyarə istehsalı və pilot təhsili müharibə əməliyyatlarını dəstəkləmək üçün artırıldı. Məsələn, ABŞ pilotların sayını 1939-cu ildəki 34 mindən 1945-ci ildə 400 mindən çox artırdı. Bu dövrdə xüsusilə hərbi təyyarələr və təlim uçuşları üçün çoxlu yeni hava limanları və uçuş-enmə zolaqları tikildi. Çünki pilotlar döyüş meydanlarında həm maddi-texniki təminat, həm də bombardman missiyaları və kəşfiyyat fəaliyyətləri üçün kritik əhəmiyyətə malik idilər. Lakin müharibənin başa çatması ilə bu böyük infrastruktur lazımsız hala gəldi. ABŞ-də bir çox hava bazaları və uçuş-enmə zolaqları hərbi əməliyyatlar başa çatdıqdan sonra ya tərk edilib, ya da mülki istifadəyə açılıb.

Müharibədən sonrakı dövrdə ABŞ artıq təlim keçmiş pilotları və mövcud infrastrukturu ilə təyyarə sahibləri və aviasiya həvəskarları üçün xüsusi imkanlar təklif etməyə başladı. Bu dövrdə ABŞ mülki aviasiyanı təşviq etmək üçün siyasətlər hazırladı, mütəxəssis pilotlarla təlimlər təşkil etdi və təyyarələrə maraq daha da artmağa başladı. Bununla belə, mövcud kommersiya hava limanları şəxsi təyyarə sahibləri üçün uyğun deyildi. Bu vəziyyət müxtəlif həll yollarının axtarışına və şəxsi uçuş-enmə zolaqları və hava parkları, yeni aviasiya məhəllələri şəklində yaşayış sahələrinin yaranmasına səbəb oldu. Əslində, bu, hava parklarının, yeni aviasiya məhəllələrinin bu dövrdə geniş yayılmasının başqa bir səbəbi də pilotların müharibə zamanı əldə etdikləri bacarıqlardan istifadə etməyə davam etmək istəmələri və təyyarələrini saxlaya biləcəkləri ərazilərə ehtiyac duymaları idi. Onların heç biri göydən uzaq qalmaq istəmirdi.

Mülki Aviasiya Administrasiyası (CAA) bu ehtiyacı ödəmək üçün müxtəlif planlar yaratdı və ölkə daxilində yeni hava parklarının yaradılması üçün səylər göstərildi. Bu mərhələdə müharibə dövründə tikilmiş və indi lazımsız olan hava limanları işə düşdü. Həmin hava limanları dəyişdirilməyə başlandı. Bu gün bu hava parklarının əksəriyyəti aviasiya mədəniyyətinin mirası olaraq, aviasiyanı xəyaldan çox həyatına çevirmək istəyən insanların yaşadığı şəxsi yaşayış sahələrinə çevrilib.

Bu məhəllələrdə yaşayanlar üçün təyyarələr də avtomobillər kimi adi bir nəqliyyat vasitəsidir və hətta evlərin qarşısında dayanır. Səhər qalxıb təyyarə anqarını açan pilot işgüzar görüşə getmək üçün uçuş-enmə zolağından qalxa bilər. Üstəlik, təyyarələr tətillər və ya qısa həftə sonu qaçışları üçün üstünlük təşkil edir. Eyni zamanda bu kampuslarda məhəllə sakinləri mütəxəssis pilotlar tərəfindən verilən təlimlərdə iştirak edə bilərlər. Aviasiya həvəskarlarını bir araya gətirən bu məhəllələr təkcə yaşayış sahəsi deyil, həm də icma təşkil edir.

*(Davamı səh: 7-də)*

**Turan**



# Son 60 ilin ən soyuq qışı

La Nina yaxınlaşır, mütəxəssislər tarix verdi

**Dünya Meteorologiya Təşkilatından (VMO) son 50-60 ilin ən soyuq dövrlərindən biri olacağı proqnozlaşdırılan La Nina üçün yeni xəbərdarlıq gəldi.**

"Şərq" xəbər verir ki, VMO-nun 2024-cü ilin dekabr və 2025-ci ilin fevral ayları arasında hava proqnozları ilə bağlı hazırladığı hesabata görə, planeti sərinləşdirən La Nina hava şəraitinin yaxın 3 ay ərzində özünü göstərəcəyi gözlənilir.

Ümumdünya Meteorologiya Təşkilatı (VMO) 2024-cü ilin dekabrından 2025-ci ilin fevralına qədər hava hadisələrinin proqnozlarına dair yeni hesabat dərc edib.

Hesabatda bu prosesdə mövcud neytral şərtlərdən (nə El Nino, nə də La Nina) La Nina şərtlərinə keçid ehtimalının yüzdə 55 olduğu bildirilib.

Həmçinin vurğulanıb ki, temperaturun artmasına səbəb olan El Nino və La Nina hava hadisələri ilə bağlı mövsümi proqnozlar və onların qlobal iqlim modellərinə təsirləri erkən xəbərdarlıq və ilkin tədbirlər üçün mühüm vasitədir.

Hesabatda fikirləri yer alan VMO-nun baş katibi Celeste Saulo, "2024-cü il El Nino hava hadisəsi ilə başladı və rekordların ən isti ili olma yolundadır. La Nina hadisəsi baş versə belə, qısamüddətli atmosferdə rekord səviyyələrdə istilik tutan istixana qazlarının istiləşmə təsirini tarazlaşdırmaq üçün soyutma təsiri qeyri-kafi qalacaq" qiymətləndirmədə deyilir.

May ayından bəri El Nino və ya La Nina şərtlərinin görülmədiyini qeyd edən Saulo, dəyişən iqlim şəraitində yeni normaya çevrilən rekord yağışlar və daşqınlar da daxil olmaqla, bir sıra fövqəladə hava hadisələrinə şahid olduqlarını xatırladıb.

Türkiyə Elmlər Akademiyasının (TÜBA) Ətraf mühit, biomüxtəliflik və iqlim dəyişikliyi iş qrupu üzvü professor Doğan Yaşar gözlənilən La Nina şərtləri ilə bağlı açıqlamalar verib.

"ABŞ Milli Okean və Atmosfer Administrasiyası (NOAA) bu il qışın sərt keçəcəyini açıqladı", - deyə Doğan Yaşar əlavə edir: "2024-cü ilin əvvəlindən may ayı istisna olmaqla, bütün aylar orta səviyyədən yüksək olub. Əgər çox isti dövr keçirmişiksə, soyuq dövr gələcək və ya əksinə. Təbiət mütləq özünü tarazlayacaq. İsti və ya soyuq hava baş alıb gedə bilməz.

2020-ci ildən sonra 2021 və 2022-ci illərdə çox nadir bir hadisə baş verdi. 3 ildir ki, çox quraqlıqdır. 2020-ci ildə 12 faiz, 2021-ci ildə 9 faiz və 2022-ci ildə 12 faiz kifayət qədər yağıntı olub. Təbiət Super El Nino ilə bu 3 illik fərqi aradan qaldırmağa çalışdı. Dubay, Sahara, Braziliya və Avropada daşqınlar olub. Məlumatlara görə, belə görünür. Düşünürəm ki, bu, son 50-60 ilin son soyuq zamanlarından biri olacaq".

**Turan**

## Ürəyin özünün "mini beyni" kəşf edildi

Bu sistemi anlamaq ürək xəstəliklərinin müalicəsində inqilab ola bilər



**Alimlərin yeni araşdırması ilə ürəyin yalnız beyindən gələn siqnallarla işlədiyi fikri təkzib edilib. Tədqiqatlar ürəyin mürəkkəb bir sinir şəbəkəsinə sahib olduğunu ortaya qoyub. "Mini beyin" adlanan müstəqil sinir sistemi ürəyin ritmini tənzimləyir.**

"Şərq" xəbər verir ki, Karolinska İnstitutunun və Kolumbiya Universitetinin alimləri ürəyin avtonom sinir sistemi ilə işlədiyini və daha mürəkkəb bir quruluşa sahib olduğunu kəşf ediblər. Elm adamları bu kəşfin ürəyin beynin ritmik funksiyaları tənzimləmə tərzinə bənzər işləyən "mini beyin" olduğunu göstərir. Tədqiqata rəhbərlik edən Karolinska İnstitutunun Neyrologiya şöbəsindən Konstantinos Ampatzis, bu sinir sisteminin ətraflı təhlilinin aritmiya kimi ürək xəstəliklərinin yenilikçi müalicələrinə yol aça biləcəyini söyləyib. Ampatzis, "Ürəyin bu qədər mürəkkəb neyron şəbəkəsinə sahib olduğunu görəndə çox təəccübləndik. Bu sistemi anlamaq ürək xəstəliklərində inqilab ola bilər" deyə vurğulayır.

Tədqiqatda zebra balığı modelindən istifadə edilib. Bu balıq növü ürək döyüntüləri və funksiyaları baxımından insan ürəyinə oxşar xüsusiyyətlərə malikdir. Ürəkdəki neyronların quruluşu, təşkili və funksiyası təkhüceyrəli RNT ardıcıllığı, elektrofizioloji və anatomik tədqiqatlar vasitəsilə ətraflı şəkildə təsvir edilib. Ampatzis araşdırmanın növbəti mərhələsində stress, idman və ya xəstəlik kimi vəziyyətlərdə ürəyin neyron şəbəkəsinin necə işlədiyini və bu prosesdə beynin rolunu araşdıracaqlarını açıqlayıb. O, həmçinin qeyd edib ki, ürək neyronlarında pozulmaların müxtəlif xəstəliklərə necə kömək etdiyini anlamaq üçün tədqiqatlar davam edir. Andrea Pedroni və başqalarının rəhbərlik etdiyi araşdırma "Nature Communications" jurnalında dərc olunub.

**Turan**

## Tibbdə ilk: döyünən ürək köçürüldü



**Paduedə ilk dəfə olaraq dünyada ürək döyünən halda transplantasiya olunub.**

"Medicina" xəbər verir ki, İtaliyanın Padue universitetinin kardiocərrahı Cino Ceroza 2 həftə əvvəl 65 yaşlı kişiyə ürək köçürməsi edib.

Ceroza bildirib ki, adətən ürək döyüntüsüz və hərəkətsiz halda çıxarılıb köçürülür.

Lakin bu dəfə əməliyyat müddətində ürək döyüntüsü orqanın çıxarılmasından imptantasiyasına qədər davam etdi. Kardiocərrah bunu tibdə inqilabi adlandırıb.

O hesab edir ki, belə olan halda ürək daha canlı olur, qorunur və ürəyi daşıyacaq insanın ömrü də uzun ola bilər.

Belə halda ürəyin işəmiyasının qarşısını alınır. Qeyd edək ki, ürək donordan alınıb. Xəstə isə yaxşıdır və Milad bayramında evində olacaq.